0_27 IYUI-QARA.qxd 2/6/2025 9:54 PM Page 1


# UNIKAL

№05 (2235) 7 fevral 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az




# Plastik cərrahlarla bağlı saxtakarlıq səhiyyədəki biabırçı durumu ortaya çıxarıb



Səh.9

## Samir Nuriyev korrupsiya ilə bağlı iclas keçirdi

*Fevralın 6-da Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının iclası keçirilib. "Unikal" xəbər verir ki, Komissiyanın sədri Samir Nuriyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin korrupsiyaya qarşı mübarizə sahəsində müəyyənləşdirdiyi hədəflərə çatmaq üçün Komissiyanın üzərinə düşən əsas vəzifələri iclas iştirakçılarının diqqətinə çatdırıb. O qeyd edib ki, 2024-cü il ərzində də dövlət idarəçiliyində səmərəliliyin artırılması, şəffaflığın gücləndirilməsi və korrupsiyaya qarşı mübarizə sahəsində davamlı tədbirlər həyata keçirilib. Bundan başqa, Komissiya sədri bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində əldə edilən nailiyyətlərin möhkəmləndirilməsi...*

Səh.2

## "Elə tədbirlər görülməlidir ki, qeyri-qanuni hallara yol verilməsin"



*Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, deputat Musa Quliyev "Unikal"a müsahibə verib. O, pensiyaların artırılmasından, bəzi plastik cərrahların lisenziyasının ləğvindən, qanunvericiliyə "Azərbaycan işarət dili" anlayışının daxil edilməsindən və çoxuşaqlı anlayışının 5 uşaqdan...*

Səh.4

## Azərbaycan Rusiyaya nota göndərdi



*Azərbaycan Respublikası ərazisində bu kimi təşkilatların fəaliyyəti milli qanunvericiliyə, ölkələr arasında qarşılıqlı prinsipinə və ikitərəfli əsasda əldə olunmuş razılıqların tələblərinə uyğun olaraq tənzimlənir. "Unikal" xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi...*

Səh.2

## Sahil Babayev maliyyə naziri təyin olundu



*Sahil Rafiq oğlu Babayev Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsindən azad edilib. "Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Dövlət başçısının digər Sərəncamı ilə, Sahil Babayev Azərbaycan Respublikasının...*

Səh.2

0_27 IYUI-QARA.qxd 2/6/2025 9:56 PM Page 2



# Duet ortağı Xatirənin adından insanları aldadıb pul alıb - Qalmaqal



***Müğənni Xatirə İslam duet ortağı Nicat Məhərrəmlinin onun adından istifadə etdiyini açıqlayıb.***

O, bu barədə sosial şəbəkədə paylaşım edib. Xatirə bildirib ki, Nicat dəfələrlə onun adından istifadə edərək insanlardan beh alıb: "Əslində bu açıqlamanı çoxdan etməli idim, amma bu günə təsadüf etdi. Bunları demədiyimə görə, nə qədər ziyanlar çəkmişəm. Bu açıqlamanı məni tanıyanlara, dostlarıma, xalqıma etməliyəm ki, bilsinlər nə var, nə yox.

Müğənni Nicat Məhərrəmli haqda danışmaq istəyirəm. Gəncdir, cavandır, uşaqdır, Allah ağıl versin, köməyi olsun. Ailələrinə də yaxın olmuşuq. Rəhmətlik anası vasitəsi ilə dost olmuşuq. Anası da çox gözəl insan idi. Nicat mənim adımdam dəfələrlə insanlardan beh alıb. Toylarda, şənliklərdə, açılışlarda problemlər yaşayır. Mənə sənət yoldaşlarım, dostlarım, aparıcılar da Nicatın borc istəməsi ilə bağlı zəng edib. Adlarını da çəkə bilərəm, sadəcə istəmirəm ki, vaxt getsin. Bununla bağlı Yaqut xanım çox böyük stresslər keçirib. Vaxt olub ki, qızıllarını satıb və Nicatın bu problemlərini həll edib. Anadır, utanıb, narahat olub. Valideyn üçün də çox ağırdır. Mən əlimdən gələn hər şeyi etmişəm. Hətta anası rəhmətə gedəndə Nicat dedi ki, pis vərdişlərimə tövbə etmişəm.

Bir mahnı aldım verdim, bütün xərcləri də öz boynuma götürdüm. Hətta dedim ki, klip də çəkdirəcəyəm və xərclərini özüm ödəyəcəyəm. Sənin də bütün müğənnilər kimi əlin çörəyə çatsın. Tanınmış ol, səsin var, sənətin var. Adam mənə tövbə etmişəm deyir, amma bu gün də adımdan beh alır. Mən söz götürən adam deyiləm. Bu həyatda heç kimə cavabdehlik daşımıram, həyat yoldaşım və övladımdan başqa. Bu gün beh alıb və həmin gün getmədiyimə görə, demək ki, "Xatirə xanımın övladının vəziyyəti ağırdır", Nicat bu sözləri demək olmaz. De ki, "Xatirə xanımın vəziyyəti ağırdır". Bilirsən ki, mən sənə nələr keçmişəm. Sənin yanında olmuşam, ananın əməliyyatında, dərmanlarında, pis günündə, nə demisinizsə, yanınızda olmuşam. Anan rəhmətə gedən günlərdə atanın da vəziyyəti yaxşı deyildi. Atanın bütün tapılmayan dərmanlarını, hər şeyini öz boynuma götürdüm ki, biri dünyasını dəyişirsə, biri qalsın. Əlimdən gələni etdim, halal xoşun olsun. Bir övlad kimi heç nədən xəbərin olmadı. Nə yasdan, nə müalicədən. Ananın müalicəsi üçün borc istəyirsən, bəs mən nə etmişəm? Mənim adıma heç kim ləkə gətirə bilməz. Çörək kəsmişik, illərlə danışmamışam. Ətrafımda görsənməlisən, güvəni qazanmalısan və sonra yığıb hamıdan pul istəməlisən? Belə olmaz! Qardaşım cavan uşaqdır, ona görə bir dəfə mənə söz gəlməyib. Sən nəyimsən? Qardaşımsan? Canın canımdan, qanın qanımdan deyil. Mənim də necə dost olduğumu bütün ailən bilir. Evimin xadiməsinə kimi gətirib sizin evinizə qoymuşam ki, ananın qulluğunda dayansın. Əlimdən gələn qədər sənə analıq etmişəm. Əvəzində mənə bu gün də belə bir şey etdinsə, istəyirəm ki, xalq qarşısında səninlə dostluğu bitirim. Və səndən tələb edirəm ki, bundan sonra mənim adımı heç yerdə çəkmə. Allahdan sənə ağıl arzu edirəm".

Məsələ ilə bağlı Nicat sosial şəbəkədə paylaşım edərək bunları yazıb: "Dostlar, həyat çətin və keşməkeşlidir. Bəzən haqlı, bəzən isə haqsız oluruq. Bəzən haqlı olduğun halda haqsız duruma düşürsən. Bəzən də həqiqətən haqsızlıq edib böyük səhvlər edirik. Təbii ki, həyatda çox çətin anlar olur. İnşallah ki, hər şey yaxşı olar".



## Aygün Kazımovadan süni intelektlə hazırlanmış klip - "Əlcək"

***Xalq artisti Aygün Kazımova 2025-ci ilə olan ikinci layihəsini təqdim edib.***

Pop kraliça bu dəfə "Əlcək" adlı yeni mahnı oxuyub və ona maraqlı video çarx hazırlatdırıb. Uzun müddətdir son zamanların dəbi ilə ayaqlaşan Kazımova süni intelektlə fotolarını izləyiciləri ilə bölüşürdü. Bu dəfə isə Diva bunun səbəbini açıqlayıb. Ölkənin əsas ulduzu klipi üçün süni intelektə müraciət edib. O, fotoların da sözügedən ekran işinin anonsu olduğunu vurğulayıb. Belə ki, klip Rusiyada Elena İkonnikova (lenaiko) və komandası tərəfindən süni intelektlə ərsəyə gəlib.

Bəstənin müəllifi Mirodur. Bu, Kazımovanın Miro ilə ikinci işbirliyidir. Pop kraliçanın bundan əvvəl oxuduğu "Bilmək olmaz" hitinin də müəllifi Miro olub.

Qeyd edək ki, A.Kazımova 10 gün əvvəl "Etiraf" adlı layihəsini təqdim edib. Müğənninin həyat hekayəsindən bəhs edən klip yutubda 1 milyondan çox izlənilib.

## Oksana polisə müraciət etdi

***Aktrisa və rəqqasə Oksana Rəsulova qayınanası və əri tərəfindən işgəncəyə məruz qaldığını deyən qadını paylaşıb.***



O, instaqram hesabında paylaşım edərək polisə müraciət edib: "Bir qadın, ana, vətəndaş, insan olaraq bu qadının səsini eşitdim. İnandım, onunla bir yerdə ağladım, o insanın ona və övladına zülm verdiyi anları təsəvvür etdim, uşağın travması gözümün önündədir. İnanıram ki, polis bu işə ədalətli baxacaq".

# "Özünə sənətkar deyən kişi, bir "iPhone"a satılır" - Nadir Qafarzadə

***"Fikirləşdim ki, susum, danışmayım, amma görürəm ki, alınmır. İstəyirəm ki, nə baş verdiyini biləsiniz. Bunu qadın ifaçılar etsə, deyərsən ki, zərif cinsin nümayəndəsidir, ürəyi xoş olsun deyə, yalandan da olsa, tərifləyər. Bunu kişilər edəndə isə dayana bilmirəm".***



Bu sözləri müğənni Nadir Qafarzadə sosial şəbəkədə paylaşdığı videoda deyib. O, bəzi kişi sənətçilərin pul qarşılığında bəzi müğənniləri təriflədiyini iddia edib: "Bəzi özünə sənətkar deyənlər, efirdə bir neçə termini işlədir, hansı ki, camaat o sözləri bilmir. Yalnız musiqi təhsili olanlar bilir. İtalyan sözləri, notdan falan... 10 milyonun hamısı notu, termini bilmir ki... Camaat da deyir ki, bu necə savadlıdır. İnanın ki, o heç sıfır da deyil. Özünə sənətkar deyən kişi, özünü pula satır. Şəxsiyyətini, sənətini, mənliyini, kişiliyini, hər şeyini bir "iPhone"a, 5-6 minə, hətta 200 manata satır. Cibinə 200 manat qoy, səni tərifləsin. Bu indi olmayıb, əvvəllər də var idi. Rəhmətə gedənlər də elə olublar, özlərini satıblar. Kimsə onların cibinə 100-200 manat qoyanda, kimsə bir "iPhone" alanda tərifləyir. Amma qıraqda yıxıb sürüyür ki. bunun sənəti var? Ümumiyyətlə niyə efirdədir? Ona "qıjı", "çuşka", savadsız ifaçı, bayağı deyir. Sonra da həmin o bayağı dediyi insanı efirdə tərifləyir. Bir sifətiniz olsun da, kişisiniz. Ən azından cins olaraq kişisiniz. Adam da satılar? Bir az qürurunuz olsun, nə olar ki? Xalq bilməyə bilər, amma biz sizi tanıyırıq. Satılanlarsınız, satılanlar! Bunlar özlərini yığışdırmasalar, gələn videolarda da adlarını açıqlayacağam".

0_27 IYUI-QARA.qxd 2/6/2025 9:59 PM Page 3



# Rəsmi Bakı "Rossotrudniçestvo" barədə Rusiyaya bildiriş göndərdi




***Azərbaycan tərəfi "Rossotrudniçestvo" agentliyinin ölkə ərazisində fəaliyyətinə xitam verilməsi barədə diplomatik kanallar vasitəsilə Rusiyaya rəsmi bildiriş göndərib.***

"Unikal" xəbər verir ki, bu barədə "Report"a məlumatlı mənbələrdən bildirilib.

Daha əvvəl analoji qərarın ABŞ-nin USAID agentliyi ilə bağlı verildiyini nəzərə alaraq (hətta Prezident Donald Trampın andiçmə mərasimindən və onun bu strukturu ləğv etmək barədə sonrakı qərarından əvvəl), bu addım müasir Azərbaycanın öz milli maraqlarını qorumaq istiqamətində ardıcıl kursu davam etdirdiyinin bir daha sübutudur və haradan qaynaqlanmasından asılı olmayaraq, kənar müdaxilələrə artıq dözmək niyyətində olmadığını göstərir.

Azərbaycan özü donora çevrilib və xüsusilə qeyri-şəffaf sxemlər əsasında və strukturu açıq şəkildə kəşfiyyat xarakterli olan təşkilatlar vasitəsilə verilən kənar yardıma ehtiyacı yoxdur.

# Vəkilliyə qəbul olmaq istəyənlərin nəzərinə!



***Vəkilliyə qəbulla bağlı ixtisas imtahanının test mərhələsində iştirak üçün elektron sənəd qəbuluna 06.02.2025-ci il tarixdən start verilir.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası (ARVK) üzvlüyünə qəbulla bağlı ixtisas imtahanının test mərhələsində iştirak üçün müraciətlər yeni qaydalara uyğun olaraq yalnız elektron formada həyata keçirilir.

Belə ki, müasir imkanlar nəzərə alınmaqla, namizədlərin sənəd qəbuluna çatımlılığının artırılması məqsədilə tətbiq olunan yeni qaydalara əsasən, elektron müraciət üçün Vəkillər Kollegiyasının rəsmi internet səhifəsindən "Vəkilliyə qəbul" bölməsinə (//barassociation.az/candidate-login) daxil olmaqla açılan pəncərədən "Namizəd qeydiyyatı"na keçid edilməlidir.

ARVK ilə Dövlət İmtahan Mərkəzi arasında əldə olunan razılığa əsasən, test imtahanının tarixi ilə əlaqədar əlavə məlumat veriləcəkdir.

Onlayn qaydada müraciətlə videotəlimata keçid etməklə tanış ola bilərsiniz.

# Baş Prokurorluq vakant dövlət qulluğu vəzifələri üçün müsahibə elan etdi

***Azərbaycan Respublikasının Baş Prokurorluğunda vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə üzrə müsahibə elan edilir.***

Bu barədə "Unikal"a Baş Prokurorluqdan bildirilib.

Qeyd edilib ki, müsahibədə iştirak etmək istəyən namizədlər yanvarın 6-ı saat 18:00-dək Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında Dövlət qulluğu üzrə müraciət Formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər. Namizəd portala daxil etdiyi məlumatların və sənədlərin aktuallığını və tamlığını təsdiq etməlidir.

Müsahibəyə təqdim edilmiş vakant vəzifə barədə buradan məlumat əldə edə bilərsiniz.

Elan edilmiş müsahibədə iştirak üçün müraciət edən namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin və qanunvericiliklə müəyyən olunmuş vakant vəzifələrin tutulmasının ümumi şərtlərinin tələblərinə cavab verməlidir.

Müsahibə ilə bağlı ətraflı məlumatı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin rəsmi internet səhifəsindən (www.dim.gov.az) əldə edə bilərsiniz.

# Tikinti oliqarxlarını gözləyən böyük təhlükə

## Bəzi MTK rəhbərləri həbs oluna bilər - Siyahıda kimlər var?



***Bu günlərdə Baş prokuror Kamran Əliyev "LEGIS" Regional Hüquq Forumundakı çıxışında bildirib ki, Baş Prokurorluğa özəl sektorlarla bağlı ən çox müraciət edənlər sadə vətəndaşlardır.***

K.Əliyevin sözlərinə görə, 4613 müraciət isə sıravi vətəndaşlar tərəfindən özəl sektor nümayəndələri barəsində edilən şikayətlərdir: "Bunun ən çoxu tikinti şirkətləri ilə bağlıdır. Tikinti şirkətləri bəzən bir evi bir neçə adama satırlar. Təbii olaraq bu cür şikayətlər Baş Prokurorluq tərəfindən çox ciddi şəkildə araşdırılır. Bu müraciətlər əsasında çoxsaylı cinayət işləri açılır".

Vurğulamaq yerinə düşər ki, Azərbaycanda tikinti şirkətlərinin özbaşınalıqlarından şikayətlər uzun illərdir davam edir. Bu şikayətlərin motivləri isə xeyli "rəngarəngdir" - bir mənzilin bir neçə nəfərə satılmasından tutmuş yaşıllıqların məhv edilməsinə, qanunsuz söküntü işləri aparılmasından evləri uçurulan sakinlərə bazar qiymətinə uyğun kompensasiya ödənilməməsinədək!

Mənzil-Tikinti Kooperativlərinin (MTK) bütün bu özbaşınalıqlara rahatca qol qoymasının isə bəsit səbəbi var. Həmin şirkətlər əksər hallarda güclü əllər (iri məmurlar, deputatlar və s.) tərəfindən himayə edildiyi üçün bir çox hallarda onlara "qaşın üstə gözün var" deyən də tapılmır, tikinti oliqarxlarının "babam mənə kor deyib, gəlib-gedəni vur deyib" prinsipi ilə hərəkət edərək "qaz vurub qazan doldurmasına", qanunsuz əməllər törətməsinə göz yumulur. Belədə isə vətəndaş məcburən hüquq-mühafizə orqanlarının yolunu tutur.

Baş prokurorun "LEGIS" Regional Hüquq Forumundakı çıxışından aydınlaşır ki, qurumda tikinti şirkətlərinə qarşı çoxsaylı cinayət işləri açılıb. Lakin bu da bir çox MTK-ların gözünü qorxutmur. Təcrübə onu göstərir ki, öz himayədarlarına arxalanan bir çox tikinti oliqarxları toxunulmaz statusunda olduqlarını düşünür və vətəndaşları incitməyə, aldatmağa davam edirlər.

İş o yerə çatıb ki, artıq məsələ mütəmadi şəkildə parlamentdə də müzakirə mövzusuna çevrilir. Məsələn, Milli Məclisin ötən ilin martındakı iclaslarından birində deputat Qüdrət Həsənquliyev bildirmişdi ki, bəzi tikinti şirkətləri paytaxtda özbaşınalıqla məşğuldur. "Heç bir dövlət orqanı da buna mane olmur. Məhkəmə qərarına da əməl olunmur. Arxayın tikinti şirkətləri var ki, bilirlər, onlara toxunmayacaq. Var-dövlət onların gözlərini elə tutub ki, istədikləri qiyməti də qoyurlar. Belə insanlar Allahdan da qorxmurlar. Amma bilməlidirlər ki, Allah bir gün bunun cəzasını verəcək. Ötən gün bir şəxsin evini xəbərdarlıq etmədən dağıdıblar. Ombudsmanın hesabatında da qeyd olunub ki, insanları bu mövzuda incidirlər. Bəs ombudsman bununla bağlı nə təklif edir və ya iş görür? Bunu müzakirə etmək lazımdır", - deyə deputat vurğulamışdı.

Ötən ilin mayında isə başqa bir deputat - Bəxtiyar Əliyev yenə Milli Məclisdə tikinti şirkətlərinin qanunsuzluqları ilə bağlı ilginc məqamlara toxunmuşdu. O bildirmişdi ki, bir çox tikinti şirkətləri bu istiqamətdə vətəndaşların çox böyük etimadını qazanıb, əmlakın dövlət reyestrində qeydiyyat məsələlərini həll edirlər və mənzillərin 2-3 və daha çox şəxsə satılması və ya sonradan dövlət reyestri xidmətindən çıxarışların alınmasında heç bir problem olmur: "Elə şirkətlər də var ki, onların dəfələrlə məhkəmələri olub, cinayət işləri qaldırılıb. Eyni zamanda bəzi şirkətlər Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmiş tikinti layihələrinə tikinti zamanı müəyyən dəyişiklik edirlər ki, bunlar da vətəndaşlar tərəfindən narazılıqla qarşılanır. Əvvəl bağlanmış müqavilələrdə göstərilmiş və Komitə tərəfindən təsdiq edilmiş layihələrlə Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" publik hüquqi şəxsində mənzillər qeydiyyata alınan zaman uyğunsuzluqlar əmələ gəlir".

Deputat təəssüflə bildirmişdi ki, bəzi şirkətlər mənzil tikintisini qanunazidd olaraq həyata keçirir. Ona görə də çox yaxşı olardı ki, tikintisinə icazə verilmiş çoxmənzilli yaşayış binalarında mənzillə bağlı vətəndaşlarla müqavilə imzalanıbsa, bu müqavilələr daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınsın. Sitat: "Bu imkan verəcək ki, Komitə tərəfindən təsdiq edilmiş layihələrin ölçülərinə, arxitekturaya sonradan heç bir tikinti şirkəti dəyişiklik etməsin, vətəndaşların hüquqları qorunsun".

Beləliklə, göründüyü kimi, illərdir ölkədəki bir çox tikinti şirkətləri "köhnə hamam, köhnə tas" prinsipi ilə işləməyə, qanunları görməzdən gəlməyə, arxalarındakı himayədarlara güvənərək vətəndaşları narazı salmağa davam edirlər. Çoxsaylı cinayət işlərinə baxmayaraq hələ də MTK-ların qanunsuzluqları müzakirə predmeti olaraq qalırsa, deməli, bu sahədə hüquq çərçivəsində daha sərt addımların atılmasına ehtiyac var. Hətta proses kimə arxalanmasından asılı olmayaraq tikinti oliqarxları barədə ən ağır ölçü götürülməlidir. Bəlkə, bundan sonra tikinti şirkətlərinin özbaşınalıqlarından şikayətlər gündəmdən çıxsın...

***Sənan Mirzə***

0_27 IYUI-QARA.qxd 2/6/2025 10:01 PM Page 4



# Plastik cərrahlarla bağlı saxtakarlıq səhiyyədəki biabırçı durumu ortaya çıxarıb

## Sərdar Cəlaloğlu: "Plastik cərrahlara saxta sənədlərin verilməsinin səbəbi korrupsiyadır"

***Son dövrlər saxta plastik cərrahlarla bağlı problemlər ölkə gündəmini zəbt edib. Sənədlərində saxtakarlığa yol verilən bəzi "plastik cərrah"lar məsuliyyətə cəlb olundular, bəzilərinin isə lisenziyaları ləğv edildi. Məsələ ilə bağlı Baş Prokurorluq tərəfindən araşdırmalara başlanıldı. Səhiyyə Nazirliyi plastik cərrahlara sənədlərini təqdim etmək üçün vaxt verdi. Bu müddət də bir neçə gün əvvəl bitdi. Yenə də, bəzi plastik cərrahların sənədlərində saxtakarlıq aşkarlandı və onların lisenziyaları ləğv edildi.***

İndi hər kəsi maraqlandıran bir sual var: Ölkədə bu qədər çox sayda saxta plastik cərrahın olmasının səbəbi nədir?

Qeyd edək ki, lisenziyası ləğv edilən plastik cərrahlarla bağlı Azərbaycan Respublikası Baş Prokurorluğu və Səhiyyə Nazirliyi birgə məlumat yayıb. Bildirilib ki, son günlər müxtəlif media vasitələrində ölkədə ayrı-ayrı plastik cərrahların praktik tibb fəaliyyəti ilə məşğul olmasına icazə verən sertifikasiya şəhadətnamələrinin ləğv olunması ilə bağlı məlumatlar yayılır. "Vətəndaşlardan daxil olan çoxsaylı şikayətləri nəzərə alaraq, ölkə ərazisində praktik tibb fəaliyyəti ilə məşğul olan plastik cərrahların peşə fəaliyyətinin qanuni əsaslarının yoxlanılmasına başlanılıb. Bu məqsədlə, Səhiyyə Nazirliyində Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Elm və Təhsil Nazirliyinin səlahiyyətli nümayəndələrindən ibarət Xüsusi Təftiş Komissiyası yaradılıb. Hazırda Xüsusi Təftiş Komissiyası təqdim olunan sənədlərin fərdi qaydada yoxlanılmasını aparır. Komissiya işini yekunlaşdırdıqdan sonra qəbul edilən qərar barədə ətraflı məlumat veriləcək. İctimaiyyət üçün həssas olan məsələyə məsuliyyətli yanaşmağı, Komissiyanın işinin nəticələrini gözləməyi tövsiyə edir və bu mövzuya diqqətli yanaşmağa çağırırıq", - açıqlamada deyilir.

Mövzu ilə bağlı "Unikal"a açıqlama verən Azərbaycan Demokrat Partiyasının sədri, həkim-ekspert Sərdar Cəlaloğlu bildirib ki, son illərdə ölkəmizdə plastik cərrahiyyəyə maraq artıb: "Bu da maddi maraqla əlaqəlidir. Məlum olduğu kimi, orada əməliyyatlar üçün çox böyük vəsaitlər sərf olunur. Ona görə də həm professional cərrahlar, həm də saxtakarlıq etmək istəyən adamlar bu sahəyə meyl edirlər. Azərbaycan səhiyyəsində yaranan problemlərin əsas iki səbəbi var. Bunlardan biri ikili idarəçilik məsələsidir. Bir tərəfdə TƏBİB var, digər tərəfdə Səhiyyə Nazirliyi. Bu iki qurumun ayrı-ayrı fəaliyyət göstərməsinin səbəbi hələ də məlum deyil. Əslində, Səhiyyə Nazirliyi bütün səhiyyə məsələlərinə cavabdeh olmalıdır. Buna baxmayaraq, hazırda faktiki olaraq bir çox sahələr var ki, Səhiyyə Nazirliyi onlara nəzarət etmir, TƏBİB cavabdehdir. Həkim fəaliyyətinə nəzarət də lazımi səviyyədə deyil", - deyə o əlavə edib.

ADP sədri hesab edir ki, Azərbaycanda tibbin inkişafı ilə bağlı yanaşma səhvdir: "Həkimlərin kurslara göndərilməsi, həkim səhvlərinin geniş kollektivlərdə müzakirə olunması və s. kimi vacib məsələlər bizdə yoxdur. Bunlar mütləq olmalıdır ki, həkim səhvləri və cinayətləri aradan qaldırılsın. Digər səbəb isə, özəl sektora nəzarətin olmaması, bəzi həkimlərin daha çox pul qazanmağa meyl etməsidir. Adam bacardı-bacarmadı, ixtisası oldu-olmadı, əgər pulu varsa, daha çox gəlir gətirən sahəyə meyl edir. Dövlət və özəl sektorun mövcud olması, onlar arasında sağlam rəqabətin olmaması, xəstəxanalardakı özbaşınalıqlar, özəl tibb müəssisələrində qiymətlərin dünya bazarından qat-qat yüksək, keyfiyyətin isə aşağı olması hazırkı vəziyyəti yaradır. Digər tərəfdən, biz bilirik ki, Azərbaycanda apteklər və xəstəxanaların çoxu dövlət məmurlarına məxsusdur. Onlar da inkişafa yox, pul qazanmaqda maraqlıdırlar. Məmurlar da sahib olduqları xəstəxanaların eyiblərini ört-basdır edirlər, oraya hər hansı nəzarət funksiyası olan qurumun girməsinin qarşısını alırlar.

Mənə elə gəlir ki, səhiyyənin problemi həddən artıq ciddidir. Bu qədər saxta sənədlərin ortaya çıxmasının kökündə korrupsiya faktları dayanır. Hamı bilir ki, bir adam qanuni şəkildə ən yüksək ixtisası əldə etsə belə, lisenziya almaq üçün pul vermək lazımdır. Xüsusilə, səhiyyə sistemində həddən artıq çox gəlirlər əldə etmək mümkün olduğuna görə, burada böyük korrupsiya var. Bir adam saxta lisenziya alır, sonra gedir milyonlarla pul qazanır. Bunu eləbelə adi həkim fəaliyyəti üçün almır. Pulla həm saxta diplom almaq mümkündür, həm də, diplomu qanuni olan, amma ixtisası olmayan adamlar da ixtisasını dəyişmək üçün pul verib istənilən ixtisasa keçə bilirlər".



Son olaraq, məlumat üçün onu da qeyd edək ki, lisenziyası ləğv edilmiş plastik cərrahların tam siyahısı məlum olub. "Unikal" musavat.com-a istinadən xəbər verir ki, səhiyyə naziri Teymur Musayevin imzaladığı əmrlə aşağıdakı şəxslərin lisenziyası ləğv olunub:

Ağamirova Könül Əlifirid qızı - sertifikasiya şəhadətnaməsi Ser. AH No 044818

Əliyeva Şövkət Tofiq qızı - sertifikasiya şəhadətnaməsi Ser. AH No 043889

Həmidova (Heydərova) Sevinc Abisalam qızı - sertifikasiya şəhadətnaməsi Ser. AH No 040407

Kərimova Bəhicə Rafiq qızı - sertifikasiya şəhadətnaməsi Ser. AH No 055491

Quliyeva Rəna Ədalət qızı - sertifikasiya şəhadətnaməsi Ser. AH No 046988

Qurbanova Təbəssüm Arif qızı - sertifikasiya şəhadətnaməsi Ser. AH No 044967

Salmanlı Elnarə Eldar qızı - sertifikasiya şəhadətnaməsi Ser. AH No 043603

Qeyd edək ki, adıçəkilən şəxslərin hamısı 2022-ci ildən sonra lisenziya alıbmış. Hazırda məsələ ilə bağlı prokurorluqda araşdırma davam edir.

***Murad İbrahimli***

# Nazir kolleci bitirən müəllimlərin aqibətindən danışdı



***Elm və təhsil naziri Emin Əmrullayev kolleclərdə bəzi müəllimlik ixtisasının zamanla ləğvi məsələsinə aydınlıq gətirib.***

"Unikal"ın məlumatına görə, nazir bu gün keçirdiyi brifinqdə çıxışı zamanı bildirib ki, həm kollec, həm bakalavr, həm də magistr səviyyəsində müəllim hazırlığı var.

Onun sözlərinə görə, misal olaraq, tar çalan biri musiqi məktəbində təhsil alır, ardınca kollec, ali təhsil və magistr oxuyur, amma nəzərə alaq ki, sonda onsuzda tar çalır.

"Vaxtı ilə savadsızlıq baxımından iki illik müəllim hazırlığına ehtiyac olub və kollec təhsili ilə kifayətləniblər. Amma bu gün bizim başqa müəllimə ehtiyacımız var. Bu, mütləq dəyişməlidir. Uzun müddət təhsil sahəsində dəyişiklik edilmir. Nəzərə almaq lazımdır ki, bir çox peşə və ixtisaslar sıradan çıxır", - nazir əlavə edib.

Nazir bildirib ki, kolleclərdə təhsil almaq universitetlərin sayının az olduğu dönəmlər üçün daha aktual idi, hazırda bəzi ixtisasların kolleclərdə olması vacib deyil:

"Artıq kolleclərdə ibtidai sinif üzrə müəllim hazırlığı məhdudlaşdırılıb. Gələcək dönəm üçün məktəbəqədər təhsil üzrə də müəllim hazırlığı məhdudlaşdırılacaq. Amma həmin kolleclər boş qalmayacaq. Ola bilsin gələcəkdə bu sahədə yeni ixtisaslar yaradılsın. Məsələn müəllim köməkçisi kimi ixtisaslar həmin kolleclərdə tədris oluna bilər".

# Dövlət Komitəsi yanında İctimai Şuranın iclası keçirilib

***Fevralın 5-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın 2025-ci il üzrə ilk iclası keçirilib.***



"Unikal" xəbər verir ki, iclasda Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi, işğaldan azad edilmiş ərazilərə bərpaquruculuq işlərinin aparılması, məcburi köçkünlərin doğma yurda qayıdışının təmin edilməsi istiqamətində məqsədyönlü, genişmiqyaslı tədbirlərin həyata keçirildiyi vurğulanıb.

Bir daha qeyd olunub ki, dövlətimizin başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərə səfərləri, Böyük Qayıdışla bağlı tədbirlərin icrasının daim nəzarətdə saxlanılması öz ata-baba yurduna qayıtmağa hazırlaşan məcburi köçkünlərdə dərin razılıq və minnətdarlıq hissi doğurur. Böyük qayıdışın səmərəliliyinin təmin edilməsində geniş ictimai fəaliyyətin də vacib olduğu diqqətə çatdırılıb, bu istiqamətdə cari ildə həyata keçirilməsi nəzərdə tutulan mühüm və təxirəsalınmaz vəzifələr müzakirə edilib. Şura üzvlərinin qaçqınlar və məcburi köçkünlərlə görüşlərinin daimi xarakter daşıması, təbliğat tədbirlərinin müasir informasiya-kommunikasiya vasitələrindən geniş istifadə etməklə aparılması diqqətə çatdırılıb.

İclasda iştirak edən Dövlət Komitəsinin sədri Rövşən Rzayev səmərəli fəaliyyət göstərdiklərinə görə şura üzvlərinə təşəkkür edib, onların rəy və təkliflərinin dəyərli olduğunu vurğulayıb.

0_27 IYUI-QARA.qxd 2/6/2025 10:04 PM Page 5



# Prezident minimum pensiyanın artırılmasını təsdiqlədi



***Fevralın 1-dən əmək pensiyalarının minimum məbləği 280 manatdan 320 manata qaldırılacaq.***

”Unikal”ın xəbərinə görə, bu, Prezident İlham Əliyevin təsdiqlədiyi “Əmək pensiyaları haqqında” qanuna dəyişiklikdə əksini tapıb.

# Bələdiyyə seçkiləri ilə bağlı daxil olan növbəti müraciətlərə baxıldı



***Mərkəzi Seçki Komissiyasında yanvarın 29-da keçirilmiş bələdiyyə seçkiləri ilə bağlı daxil olan növbəti müraciətlərə baxılıb.***

”Unikal” xəbər verir ki, müraciətləri MSK-nın və Ekspert qrupunun üzvləri Ramiz İbrahimov, Fuad Cavadov, Qabil Orucov, Tofiq Həsənov, İlkin Şahbazov və Nailə Əsgərovanın təqdim ediblər.

Qeyd edilib ki, müraciətlər 72 saylı Cəlilabad kənd, 113 saylı Qax-Şəki, 69 saylı Biləsuvar, 81 saylı İmişli, 82 saylı İmişli-Saatlı, 83 saylı Beyləqan, 74 saylı Masallı (2 müraciət), 95 saylı Zərdab-Kürdəmir-Ucar (2 müraciət), 80 saylı Lerik-Astara seçki dairələri üzrədir. Müzakirələrin yekununda bəzi müraciətlərin araşdırılması üçün müvafiq dairə seçki komissiyalarına göndərilməsi qərara alınıb, bəziləri isə əsassız hesab edilib. Xatırladaq ki, yanvarın 29-da keçirilən bələdiyyə seçkilərində 1 milyon 874 min 810 seçici səsvermə hüququndan istifadə edib və seçici fəallığı 31,45% olub.

# Sahil Babayev maliyyə naziri təyin olundu

***Sahil Rafiq oğlu Babayev Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsindən azad edilib.***

”Unikal” xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Dövlət başçısının digər Sərəncamı ilə, Sahil Babayev Azərbaycan Respublikasının maliyyə naziri təyin edilib.

## ELAN

Mailov Şahin Camal oğluna Daşkəsən rayon Hərbi Komissarlığı tərəfindən 03.08.1988-ci il tarixdə verilmiş SeriyaNºA464563-li veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# “DİM-in imtahanları yüksək keyfiyyətlə keçirməsinə inanıram” - Nazir

***“Mən DİM-in imtahanları yüksək keyfiyyətlə keçirməsinə inanıram. Təhsil Nazirliyi ilə DİM-in sıx əməkdaşlığı var, lazım olanda bir-birimizə kömək edirik”.***

”Unikal” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev bəzi ekspertlərin müəllimlərin işə qəbul və sertifikasiya imtahanlarının Nazirlikdən alınaraq DİM-ə verilməsi iddiaları ilə bağlı sualı cavablandırarkən bildirib. “Təhsil ekspertləri bir az bikar qalıblar. Təhsil Nazirliyi ilə DİM arasında münaqişə olanda həyat bir az daha maraqlı olur. DİM ixtisaslaşmış qurumdur, lazım olanda biz onlardan məsləhət alırıq. Bizim logistika imkanlarımız genişdir, ehtiyac olarsa, biz onlara kömək edirik. Hər iki qurum Azərbaycan təhsilinə xidmət edir”.

# İlham Əliyev Fərman imzaladı

***Prezident İlham Əliyev “İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında” 29 noyabr 2017-ci il tarixli və “İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər haqqında” 1 may 2018-ci il tarixli Fərmanlarına dəyişiklik edib.***



”Unikal” xəbər verir ki, bununla bağlı dövlət başçısı yeni Fərman imzalayıb.

Fərmana əsasən, Azərbaycanda sahibkarların 2018-ci il yanvarın 1-dən 2026-cı il dekabrın 31-nə qədər banklardan manatla aldığı kreditlərə hesablanmış faizlərə görə subsidiya veriləcək. İndiyə qədər subsidiyanın verilmə müddəti ötən ilin sonuna qədər alınış kreditləri əhatə edirdi.

Subsidiyanı İpoteka və Kredit Zəmanət Fondu ödəyir.

# Samir Nuriyev korrupsiya ilə bağlı iclas keçirdi

***Fevralın 6-da Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının iclası keçirilib.***



”Unikal” xəbər verir ki, Komissiyanın sədri Samir Nuriyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin korrupsiyaya qarşı mübarizə sahəsində müəyyənləşdirdiyi hədəflərə çatmaq üçün Komissiyanın üzərinə düşən əsas vəzifələri iclas iştirakçılarının diqqətinə çatdırıb. O qeyd edib ki, 2024-cü il ərzində də dövlət idarəçiliyində səmərəliliyin artırılması, şəffaflığın gücləndirilməsi və korrupsiyaya qarşı mübarizə sahəsində davamlı tədbirlər həyata keçirilib.

Bundan başqa, Komissiya sədri bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində əldə edilən nailiyyətlərin möhkəmləndirilməsi baxımından korrupsiyaya qarşı mübarizə mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, korrupsiyaya qarşı mübarizə tədbirləri dövlət orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun olaraq qurulması və dövlət orqanlarına ictimai etimadın gücləndirilməsi baxımından da zəruridir. Eləcə də dövlət orqanlarının fəaliyyətində hesabatlılığın və məsuliyyətin artırılması, dövlət əmlakının düzgün idarə olunması sahəsində yeni çağırışlar da korrupsiyaya qarşı mübarizə fəaliyyətinin sistemli və davamlı şəkildə aparılmasını şərtləndirir.

İclasda Komissiyanın Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən seçilmiş yeni üzvləri təqdim olunub, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq məsələləri də müzakirə edilib. Bu əməkdaşlıq çərçivəsində Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupunun (GRECO) 5-ci dəyərləndirmə raundu çərçivəsində verdiyi tövsiyələrlə bağlı görülmüş işlər nəzərdən keçirilib.

İclasda məhkəmə-hüquq sistemində aparılmış son islahatların korrupsiyaya qarşı mübarizə fəaliyyətinə təsiri barədə məruzə dinlənilib, bu sahədə şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün verilən təkliflər müzakirə edilib. Eləcə də dövlət orqanlarının (qurumlarının) fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili, qiymətləndirilməsi və qarşısının alınması ilə bağlı fikir mübadiləsi aparılıb.

Bundan başqa, Komissiyanın Reqlamenti və növbəti dövr üçün iş planı təsdiq edilib.

# Azərbaycan Rusiyaya nota göndərdi

***Azərbaycan Respublikası ərazisində bu kimi təşkilatların fəaliyyəti milli qanunvericiliyə, ölkələr arasında qarşılıqlı prinsipinə və ikitərəfli əsasda əldə olunmuş razılıqların tələblərinə uyğun olaraq tənzimlənir.***

”Unikal” xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Rusiya Federasiyasının “Rossotrudniçestvo” agentliyinin Azərbaycan Respublikası ərazisində fəaliyyətinə xitam verilməsi ilə bağlı yerli mətbuatın sualına cavabında deyib.



“Rossotrudniçestvo”nun Azərbaycandakı nümayəndəliyi olan Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi - “Rus Evi”nin hüquqi şəxs qismində qeydiyyatının mövcud olmadığı və təşkilatın Azərbaycan qanunvericiliyini ciddi şəkildə pozduğu barədə Rusiya tərəfinə məlumat verildikdən sonra, 3 fevral 2025-ci il tarixində “Rus Evi”nin fəaliyyətinə xitam verilməsi barədə Rusiya tərəfinə nota göndərilib.

Bununla, Azərbaycan tərəfinin ölkəmizdə “Rus Evi”nin fəaliyyətinə xitam verilməsi barədə qərarından irəli gələrək, Rusiya tərəfindən bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilməsi gözlənilir.

# Bir qrup Azərbaycan QHT-si ABŞ vitse-prezidenti və dövlət katibinə açıq məktub ünvanladı

***Bir qrup Azərbaycan QHT-si ABŞ və Avropa İttifaqında Rusiyaya qarşı sanksiyaların tətbiqi və icrasına nəzarət üzrə əsas məsul qurumların rəhbərlərinə açıq məktub ünvanlayıb.***

”Unikal” xəbər verir ki, məktub ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vensə, ABŞ-ın dövlət katibi Marko Rubioya, ABŞ-ın Xəzinədarlıq Katibliyinin rəhbəri Skot Bessentə (Scott Bessent)!

Hörmətli ABŞ Ticarət katibi vəzifələrini icra edən cənab Ceremi Pelter (Jeremy Pelter)!

Hörmətli ABŞ-ın Baş prokuroru xanım Pamela Bondi (Pamela Jo Bondi)!

Hörmətli Avropa İttifaqı Şurasının prezidenti cənab Antonio Koşta (Antonio Costa)!

Hörmətli Avropa Komissiyasının prezidenti xanım Ursula fon der Lyayen (Ursula von der Leyen)!



Hörmətli Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə Ali Nümayəndəsi cənab Kaya Kallas (Kaja Kallas)!

Biz, aşağıda imzası olan Azərbaycanın qeyri-hökumət təşkilatları Ukraynada davam edən müharibə ilə əlaqədar tətbiq edilən beynəlxalq sanksiyalardan Rusiyanın yan keçməsinə şərait yaradan Ermənistan Respublikasının fəaliyyətindən ciddi narahat olduğumuzu bəyan edirik.

Cənubi Qafqazda ən kiçik xarici ticarət dövriyyəsinə malik olan Ermənistanın 2022-ci ildə Rusiya ilə Ukrayna arasında başlayan müharibədən sonra həm idxalında, həm də ixracında iqtisadi potensialına uyğun olmayan kəskin artımlar müşahidə edilməyə başlanıb. 2021-ci ildə Rusiya ilə Ermənistan arasındakı ticarət dövriyyəsi təxminən 2,5 milyard ABŞ dolları olduğu halda, 2024-cü ildə 5 dəfəyə qədər artaraq 12 milyard ABŞ dolları səviyyəsinə çatıb. 2021-ci ilə qədər Ermənistanın mal və məhsul ixracında Rusiya Federasiyasının payı 27% həddini keçmədiyi halda, 2022-2023-cü illər ərzində 40-44% həddinə yüksəlib. 2024-cü il ərzində Ermənistanın əsas ixrac coğrafiyası Rusiyadan idxal edilən qiymətli metalların üçüncü ölkələrə yönəldilməsi səbəbindən Ərəb körfəzi ölkələri olub.

Ticarətin bu cür kəskin artması, xüsusən də yüksək texnologiyalı malların ixracı bu məhsulların hərbi məqsədlər üçün istifadəsi ilə əlaqədar ciddi narahatlıqlar yaradır. Ermənistanın 2024-cü ildə Rusiyaya ixracında önə çıxan yarımkeçiricilər, smartfonlar, rabitə cihazları və digər yüksək texnoloji avadanlıqların heç birini Ermənistan iqtisadiyyatı istehsal etməyə qabil deyil. Bu, Rusiyanın Ukraynadakı hərbi səylərini dəstəkləyə biləcək malların ötürülməsini asanlaşdırmaqla sanksiyaların potensial pozulduğunu göstərir. Bu, Ermənistan kimi üçüncü iştirakçı vasitəsilə Rusiyanın sanksiyalardan yayınaraq, Ukraynadakı hərbi səylərini dəstəkləyə biləcək mallar əldə etməsinə dəlalət edir.

Ermənistanın sanksiyalardan yayınmada artan rolu bu sanksiyaların Rusiyaya təsirini sarsıdan əhəmiyyətli boşluğa işarə edir. Bu vəziyyətə cavab olaraq, biz ABŞ və Aİ-ni aşağıdakı addımları atmağa çağırırıq:

- Ermənistanın ticarət əməliyyatlarına nəzarət artırılsın: Ermənistanın idxal və ixrac etdiyi malların daha sərt rejimdə yoxlanılmasını, bu sahədə şəffaflığın təmin edilməsini, xüsusilə, müharibədə istifadə olunan mallarla qanunsuz ticarətin qarşısının alınmasını tələb edirik!;

- Sanksiyaların tətbiqi gücləndirilsin: ABŞ və Aİ hökumətlərinin mövcud sanksiyaları daha ciddi şəkildə tətbiq etmələri vacibdir. Biz onları sanksiyalardan yayınmada roluna görə Ermənistana qarşı məqsədyönlü sanksiyalar və ya ticarət məhdudiyyətləri tətbiq etməyə və Rusiyanın sanksiyalardan yan keçməsinə kömək edən istənilən dövlətə qarşı qəti addımlar atmağa çağırırıq.

- Ermənistana diplomatik təzyiq gücləndirilsin: Biz Qərb hökumətlərini Ermənistanın Rusiyaya bu cür dəstəyini dayandırması üçün diplomatik səyləri gücləndirməyə çağırırıq. Ermənistana beynəlxalq hüquq üzrə öhdəlikləri, sülh və birgəyaşayış prinsiplərinə riayət etmək məsuliyyəti xatırladılmalıdır.

Ermənistanın Rusiyaya davamlı dəstəyi təkcə Ukraynada müharibəni uzatmır, həm də sülh və sabitliyin bərpası üçün beynəlxalq səylərə zərbə vurur. Ermənistanın öz hərəkətlərinə görə cavabdehlik daşımaması beynəlxalq hüququn növbəti dəfə pozulmasına təkan verir və sanksiyalar rejimini zəiflədir.

Biz qəti şəkildə inanırıq ki, beynəlxalq ictimaiyyətin vahid və qətiyyətli mövqeyi Ermənistanın hərəkətlərini dayandırmaq və Rusiyaya qarşı sanksiyaların effektivliyini gücləndirmək üçün çox vacibdir. Ümid edirik ki, siz bizim narahatlığımızı nəzərə alacaq və Ermənistanın Ukraynada münaqişəni qızışdırmasının qarşısını almaq üçün lazımi addımları atacaqsınız.

Sonda, biz sizə üz tutaraq təcili çağırış edirik: Ermənistanın Rusiyanı sanksiyalardan yayındırması dayandırılsın!”.

Müraciəti Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü Zaur İbrahimli, Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun rəhbəri Sabit Bağırov, Azərbaycan Respublikası Müharibə, Silahlı Qüvvələr və Əmək Veteranları Təşkilatının Rəyasət Heyətinin üzvü, istefada olan general-mayor Vladimir Timoşenko, İqtisadi və Sosial İnkişaf Mərkəzi İctimai Birliyinin sədri Kəramət İsmayılov, Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyasının sədri Günay Şahbazova, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının İdarə Heyətinin sədri Ramin Şərifov, “Ekonomiks” Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri Fikrət Yusifov, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının sədri Səkinə Babayeva, İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyinin sədri Ruslan Atakişiyev, İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri Eyyub Kərimli imzalayıblar.

# "Təhsilin arzuolunan yerdə olması üçün zaman lazımdır" - Nazir




***Azərbaycan təhsilinin arzuolunan yerdə olması üçün zaman lazımdır.***

”Unikal” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev deyib. Onun sözlərinə görə, hazırda təhsil sahəsində inkişaf müsbət yöndə davam edir: ”Təhsil sistemi inkişaf etməkdədir. Lakin Azərbaycan təhsilinin arzuolunan yerdə olması üçün vaxt lazımdır. Çünki bu, insanların həyatıdır və kimlərinsə istəyinə görə fərqli istiqamətlərə yönləndirilə bilməz”.

”Repetitorluq valideynin seçimidir. Burada ayıb, pis bir şey yoxdur”, - deyən E.Əmrullayev bildirib ki, dəbə görə repetitor yanın gedən də var.

Ötən il 96 məktəbdə metodiki xidmət təşkil olunub. Nazir bildirib ki, ötən il 96 məktəbdə 1 080 metodiki görüş təşkil edilib: ”2024-cü il ərzində 5 min 840 dərs dinləmə həyata keçirilib. 59 nəfər qiymətləndirmə metodisti sinqapurlu təlimçilər tərəfindən təlimləndirilib və onlar 143 məktəbdə fəaliyyətə başlayıblar”.

# Azərbaycanda bu müəllimlərin maaşı 1407 manatdır



***İbtidai sinif üzrə müəllimlərin əməkhaqqı əvvəl 748 manat idisə, sertifikasiyadan sonra 1 167 manat olub.***

”Unikal” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev deyib.

O bildirib ki, Azərbaycan dili və ədəbiyyat fənni üzrə müəllimlər əvvəl 841 manat maaş alırdısa, sertifikasiyadan sonra 1 355 manat, riyaziyyat fənni üzrə əvvəl 1 016 manat idisə, sonradan 1 407 manat, xarici dil üzrə 888 manat idisə, sonradan 1 342 manat olub:

Nazir qeyd edib ki, bu artımlar vergilər də daxil olmaqla olan rəqəmlərdir.

# Qarabağda fəaliyyət göstərən məktəb və bağçaların sayı açıqlandı



***Hazırda azad olunan ərazilərdə 11 məktəbdə 272 müəllim 2 213 şagirdə dərs deyir.***

”Unikal” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev fevralın 6-da keçirdiyi brifinqdə deyib. Nazir bildirib ki, 6 bağça, 16 tərbiyəçi-müəllim və 183 uşaq var.

Onun sözlərinə görə, sayın gələcəkdə artacağı gözlənilir.

# Şahnaz Bəylərqızı və Şəmşad barəsində həbs qərarı verildi

***”Toplum TV” işi üzrə saxlanılan Şahnaz Bəylərqızı barəsində həbs qətimkan tədbiri seçilib.***

”Unikal” xəbər verir ki, bu barədə qərar Xətai Rayon Məhkəməsində verilib. Qərara əsasən onun barəsində 3 ay 15 gün müddətə həbs edilib.

Qeyd edək ki, Şahnaz Bəylərqızı ötən gün saxlanılıb.

“Arqument.az” saytının rəhbəri Şəmşad Ağa (Ağayev) barəsində həbs qətimkan tədbiri seçilib.

Bu barədə Xətai Rayon Məhkəməsində keçirilən prosesdə qərar qəbul olunub. Qərarə əsasən, Şəmşad Ağa barəsində 2 ay 1 gün müddətinə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, ona Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq, əvvəlcədən əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.

0_27 IYUI-QARA.qxd 2/6/2025 10:04 PM Page 7





# Məhkəmə Əli Kərimli barədə qərarı qüvvədə saxladı

***Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimli barəsində olan qərardan verilən apellyasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib.***

"Unikal" Apa-ya istinadən xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsində hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə qərar qəbul olunub.

Qərara əsasən, şikayət təmin edilməyib və birinci instansiya məhkəməsinin qərarı qüvvədə saxlanılıb.

Qeyd edək ki, partiyanın sabiq Nəzarət Təftiş Komissiyasının sədri olmuş, daha sonra partiya sıralarından xaric edilən Əliyev Aydın Sədədqulu oğlu Əli Kərimlinin Cinayət Məcəlləsinin 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri ilə məsuliyyətə cəlb edilməsi ilə bağlı Nəsimi Rayon Məhkəməsinə müraciət edib. Aydın Əliyev 10 iyun 2019-cu il tarixində partiya sıralarından kənarlaşdırılıb.

Nəsimi rayon Məhkəməsinin qərarına əsasən, Əli Kərimli 1500 manat məbləğində cərimə edilib.

# Vəzifəli şəxslər məhkəmə zalında həbs edildi

***250 min manatlıq dələduzluqda ittiham edilən məmurların məhkəməsi başa çatıb.***

Pəhlivan Güləliyev, Yusif Balabəyov və Azər Əliyev Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda dələduzluq) maddəsi ilə təqsirli biliniblər. Bildirilib ki, P.Güləliyev uzun müddət Əmlak Məsələləri Dövlət Xidmətinin müxtəlif idarələrində yüksək vəzifələrdə, eləcə də Şirvan layihə tədqiqat idarəsinin rəisi postunda çalışıb. Dələduzluq cinayəti baş verərkən isə o, "Daşınmaz Əmlakın Dövlət kadastrı və reyestri" publik hüquqi şəxsin tabeliyindəki MMC-də mühəndis olub. Azər də onun kimi qurumun mühəndisi vəzifəsində çalışıb. Digər təqsirləndirilən şəxs isə daha əvvəl Şamaxıda bələdiyyədə mühasib kimi çalışıb.

Elə həmin müştərini də Yusif tapıb. Belə ki, Pərvin adlı şəxs ona müraciət edərək Yeni Suraxanı qəsəbəsində uçurum formasında olan 2,35 hektar sahibsiz torpaq sahəsi tapdığını və onu sənədləşdirmək istədiyini bildirib. Yusif də Əmlak Məsələləri Dövlət Xidmətində tanışlarının olduğunu deyib və onları bu işə cəlb edib. Həmin şəxslər Pərvinə bu işi 250 min manat qarşılığında həll edəcəklərini, torpağı 25 yerə bölərək hərəsi 10 sot olmaqla 25 müxtəlif şəxsin adına rəsmiləşdirəcəklərinə söz veriblər.

Lakin adları çəkilən şəxslər 250 min manat pul alsalar da, ərazisində yerləşən magistral neft və qaz kəmərlərinin mühafizə zonası olmaqla "Sənaye, nəqliyyat, rabitə, müdafiə və digər torpaqlar" kateqoriyasına aid dövlət mülkiyyəti olan 2,35 ha torpaq sahəsini özəlləşdirə bilməyiblər. Verdiyi pulları da geri ala bilmədiyini görən Pərvin bununla bağlı Baş Prokurorluğun Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə müraciət edib və cinayət işi açılıb.

# "Elə tədbirlər görülməlidir ki, qeyri-qanuni hallara yol verilməsin"

## Musa Quliyev: "Tibb elə bir sektordur ki, bu, birbaşa insanın həyatı, sağlamlığı ilə bağlıdır"

***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, deputat Musa Quliyev "Unikal"a müsahibə verib. O, pensiyaların artırılmasından, bəzi plastik cərrahların lisenziyasının ləğvindən, qanunvericiliyə "Azərbaycan işarət dili" anlayışının daxil edilməsindən və çoxuşaqlı anlayışının 5 uşaqdan 3 uşağa endirilməsi məsələsindən danışıb.***

***-Musa müəllim, Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, pensiyaların sığorta hissəsi indeksləşdirilərək artırılacaq. Artımlar nə qədər pensiyaçını əhatə edəcək?***

-Fevralın 5-də Prezident İlham Əliyev əmək pensiyalarının indeksləşdirilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə bu il yanvarın 1-nə 2024-cü il üzrə



Dövlət Statistika Komitəsinin müəyyən etdiyi orta aylıq nominal əmək haqqının illik artım tempinə uyğun olaraq pensiyaların sığorta hissəsini indeksləşdirmək tapşırılıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il orta aylıq əmək haqqının artım tempi 8,1 faiz olub. Bütün pensiyaçıların pensiyaları avtomatik olaraq 8,1 faiz artırılacaq. Yanvar ayının artımları fevralın üzərinə əlavə olunaraq veriləcək. Qeyd edim ki, pensiyaların indeksləşdirilərək artırılması bütün pensiyaçılara, yəni, 1,1 milyon pensiyaçıya şamil olunur və bu artımlar üçün illik əlavə olaraq 534 milyon manat vəsait ayrılıb. Sərəncamın digər maddəsinə görə, hazırda işləyən, əmək müqaviləsi olan şəxslərin pensiya kapitalının qorunması məqsədilə ötən ildəki inflyasiya faizinə uyğun olaraq onların pensiya kapitalı indeksləşdirilərək artırılacaq. Ötən il ölkə üzrə inflyasiya 2,2 faiz olub. Qeyd etdiyim şəxslərin pensiya kapitalları 2,2 faiz artırılacaq. Sərəncamın mahiyyəti bundan ibarətdir və artıq icradadır.

***-Bu günlərdə plastik cərrahların lisenziyasının ləğv olunması və həkimlərin özünü reklam etməsi məsələsi gündəmdədir. Parlamentin yaz sessiyasının ilk iclasında çıxışınız zamanı siz də həkimlərin reklam məsələsindən danışdız. Ümumiyyətlə, plastik cərrahlara lisenziya verilərkən nələrə diqqət yetirilməlidir və həkimlərin reklam məsələsi necə tənzimlənməlidir?***

-Ola bilər ki,hansısa həkimin lisenziya aldığı dövrdə fəaliyyəti uğurlu olmayıb, yaxud lisenziyası uyğun deyil, öz lisenziyasına uyğun fəaliyyət göstərməyib və neqativləri olub. Bundan sonra elə tədbirlər görülməlidir ki, qeyri-qanuni hallara yol verilməsin. İxtisaslar dəqiqləşdirilsin, tibbi protokallar tam işlənilsin və görülən, aparılan bütün tibbi xidmətlər tibbi protokallara uyğun olsun. Vaxtlı-vaxtında nəzarət, ekspertiza olsun, maarifləndirmə tədbirləri görülsün. Onların peşə və biliklərinin artırılması formal aparılmasın. Bütün bunların hamısına ciddi nəzarət olmalıdır. Özəl sektorda yoxlamaların dayandırılması ilə bağlı müddət daha bir il uzadıldı. Bu, özəl sektora müəyyən işlərini qurmaq üçün dəstəkdir. Gərək bundan da sui-istifadə olunmasın. Tibb elə bir sektordur ki, bu, birbaşa insanın həyatı, sağlamlığı ilə bağlıdır. Bir-iki həkimin və ya klinikanın neqativ fəaliyyəti bir də görürsən bu sahəyə inamı itirir.

Həmçinin, həkim şəxsi reklam olunmalı deyil. Bir klinika digərindən üstün şəkildə təqdim olunmamalıdır. Bütün dünyada həkimi şəxs olaraq reklam etmək qadağandır. Bir sıra televiziya kanallarında şou proqramlarda, tibbi xidmətlərin, ayrı-ayrı həkimlərin və klinikaların heç bir normalara uyğun olmayan reklam edilməsi bir tərəfə, görürsən ki, şou proqramların sponsorluğunu da həkimlər edirlər. Bunun da olduqca mənfi nəticələri ortaya çıxır. Əlbəttə, biz tibb sektorunda xidmətlərin reklamına qarşı deyilik, ancaq reklamın müəyyən çərçivələri, normaları var. O cümlədən, tibbi diantalogiya və tibbi etika da gözlənilməlidir. Həkimlərin ümumiyyətlə şəxs olaraq reklam edilməsi, dünyanın heç bir ölkəsinin reklam praktikasında yoxdur. Bununla yanaşı, Səhiyyə Nazirliyi və Audiovizal Şura da müəyyən tədbirlər görməlidir. Səhiyyə Nazirliyi həkimləri sertifikasiya edir, onlara müəyyən fəaliyyət üçün icazə verir. Yoxsa həkimlər tibbə dəxli olmayan verilişə sponsorluq edirlər. Burada təbii ki, sağlam niyyətdən söhbət getmir.

***-"Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən, qanunvericiliyə "Azərbaycan işarət dili" anlayışı daxil edilir. Azərbaycan işarət dili eşitmə qabiliyyəti tam məhdud olan azərbaycandilli şəxslərin qollar, əllər və barmaqlardan eyni zamanda istifadə edilməklə fikirlərini ifadə etməsidir. Bu anlayışın daxil edilməsinin hansı üstünlükləri var?***

-İşarət dilinin Azərbaycan versiyası hazırlanmalıdır. İndiyə qədər rus və türk versiyasından istifadə olunurdu. İndi Azərbaycan əlifbasına uyğun işarət dili hazırlanacaq. Həmçinin bu istiqamətdə mütəxəssislər də hazırlanmalıdır. İşarət dili haqqında qanunun qəbul olunması vacib məsələdir. Müəyyənləşəcək ki, televiziyalarda hansı saatlarda və verilişlərdə mütləq olsun.

***-Müharibə veteranlarına verilən 80 manat təqaüdün artırılması ilə bağlı bir neçə dəfə təkliflər səsləndirilib. Bu istiqamətdə artımın olması gözlənilirmi?***

-Müavinət, pensiya və əməkhaqqı olsa, bunun artırılmasından danışa bilərik. Hansı növ təqaüdün müəyyən edilməsi və ya onun artırılması cənab Prezidentin səlahiyyətində olan məsələdir.

***-Azərbaycanda çoxuşaqlı anlayışının 5 uşaqdan 3 uşağa endirilməsi ilə bağlı fikirlər var. Parlamentdə də bu məsələyə yenidən baxılması barədə təkliflər səsləndirən həmkarlarınız olub. Belə ki, çoxuşaqlı ailə modeli 5-dən 3-ə endirilsə, 100 mindən çox ailədə yaşayan uşaqlar sosial müavinət ala biləcəklər. Bu istiqamətdə hansısa yenilik varmı?***

-Bu məsələ gündəmdədir və müzakirə mövzusudur. Demoqrafik inkişafla bağlı dövlət proqramı hazırlanacaq. Azərbaycanda əhali artımı, dinamikası, yaş tərkibi və s. ilə bağlı proqram qəbul olunmalıdır. Vaxtilə belə bir prorqma olub. 15 il bundan qabaq qəbul olunmuş proqram var idi. İndi yəqin ki, yeni proqram qəbul olunacaq. Orada da bu məsələ öz əksini tapa bilər. Beş uşaq həqiqətən də çoxdur.

***Anar Kəlbiyev***

# Abel Məhərrəmova böyük şok

## Torpaq qalmaqalında yeni pərdə: sabiq rektor-deputat "yasa batdı" - Onu qarşıda başqa hansı sürprizlər gözləyir?

***Bakı Dövlət Universitetinin (BDU) keçmiş rektoru, Milli Məclisin üçüncü və dördüncü çağırış deputatı olmuş Abel Məhərrəmovun adının hallandığı torpaq qalmaqalı ilə bağlı Ali Məhkəmənin qərarı məlum olub.***

Qaynarinfo-nun əldə etdiyi məlumata görə, Ali Məhkəmə işin yenidən apellyasiya instansiyasında araşdırılması ilə bağlı qərar qəbul edib.

Abel Məhərrəmovu məhkəməyə verən Qarabağ qazisi, ehtiyatda olan polkovnik-leytenant Nazim Əmirovun vəkili Anar Qasımlı xəbəri təsdiqləyib. Vəkil bildirib ki, birinci və apellyasiya instansiyaları işə ədalətli yanaşmamışdı. Onun sözlərinə görə, bu baxımdan, Ali Məhkəmənin qərarı təqdirəlayiqdir.



"Kassasiya şikayətində apellyasiya instansiyasının qərarının ləğv edilərək, Nazim Əmirovun xeyrinə qərar qəbul edilməsi istənilirdi. Lakin Ali Məhkəmə şikayəti qismən təmin edərək, işi təkrar apellyasiya baxışına göndərilməsi barədə qərar çıxardı. Bu halda belə, qərarı müəyyən mənada ədalətli hesab etmək mümkündür. Ümid edirəm ki, apellyasiya instansiyasında təkrar baxış zamanı da ədalətli qərar çıxarılacaq" - vəkil deyib.

İşin detallarına gəlincə, iddiaya görə, Abel Məhərrəmov Altıağac qəsəbəsində Naizm Əmirova məxsus torpaq sahəsini zəbt edərək, xanımı Rəhimə Mahmudovanın adına rəsmiləşdirib. Keçmiş rektor həmin ərazidə özünə dəbdəbəli villa tikib.

Nazim Əmirov bundan xəbər tutduqda məhkəməyə üz tutub. Xızı Rayon Məhkəməsi polkovnik-leytenantın iddiasını təmin etməyib. O, apellyasiya şikayəti verib. Şikayətə Sumqayıt Apellyasiya Məhkəməsində baxılıb və təmin edilməyib.

Əslində Ali Məhkəmənin sabiq rektor-deputatı məyus edəcək qərarı təəccüb doğurmur. Məlum torpaq qalmaqalı ilə bağlı cəmiyyətdə və mediada belə bir fikir çoxdan hakim idi ki, Məhərrəmov sözügedən məsələdə haqsız olmasına baxmayaraq aşağı instansiyalarda onun lehinə qərarlar çıxarması səbəbsiz olmayıb. Abel Məhərrəmovun həm rektor, həm də deputat olaraq keçmişdə sahibləndiyi imtiyazlar, eləcə də müəyyən əlaqələr sözügedən instansiyaların ədalətli qərar verməsini müəyyən qədər əngəlləyib. İndiki mərhələdə isə Ali Məhkəmə işin yenidən apellyasiya instansiyasında araşdırılması ilə bağlı qərar verərək növbəti mərhələdə ədalətli hökm çıxarılmasının bir növ önünü açıb.

Onu da deyək ki, Məhərrəmovun məhz məlum imtiyazlardan, əlaqələrdən çıxış edərək adının hallandığı bir çox digər qalmaqalların da ya öz lehinə həll edilməsinə, ya da arxa plana atılmasına nail olub. Məsələn, 2021-ci ildə keçmiş rektor-deputatdan təmir-tikinti materiallarının, görülən işlərin pulunu tələb edən, onunla məhkəmədə çəkişən İsmixan Mirzəyev ilginc açıqlama vermişdi. Məhərrəmova qarşı 811 min manatlıq pul tələbi haqda iddiasının təmin olunması barədə mediaya açıqlama verən Mirzəyev sonradan öyrənib ki, məhkəmə onun əleyhinə qərar çıxarıb.

"Bu necə ola bilər, baş açmaq olmur. Hakim qərarı elan edəndə hətta üzünü o biri tərəfin vəkilinə tutub dedi ki, "Apellyasiya şikayəti vermək hüququnuz var". Çünki o biri tərəf narazı idi. Biz də sevindik ki, iddiamız təmin olundu. Sonra məlum olur ki, yox, qərar başqa cürdür..." - Mirzəyev əlavə etmişdi.

İddiaçı tərəf demişdi ki, keçmiş rektorun evində və obyektlərində təmir-tikinti işləri aparıb. Bu zaman həm lazım olan mal-materiallar alınıb, həm də ustalar cəlb olunub. Borc da bu üzdən yaranıb: "O vaxt materialları dollarla alırdıq. Üstündən 11 il keçib, vermir pulu. Ustaların, materialların bir hissəsinin pulunu özümüzdən verdik. Qalanını indi də borcluyuq. Məhkəməyə altı şahid gətirdik. Nə qədər sübut qoyduq ortaya ki, bu obyekt ailəsinin filan üzvünündür, bu müqavilə ilə bu işi görmüşük, pul ödənilməyib".

Sabiq rektor-deputatla yanaşı, BDU-nun keçmiş prorektoru Nəbi Ramazanlı da cavabdeh qismində cəlb olunub. İddiaçı tərəf bunu belə əsaslandırmışdı ki, prosesdə vasitəçi kimi Ramazanlı məşğul olurdu.

Düzdür, Məhərrəmov evində və obyektində işlətdiyi ustaların pulunu verməməsi haqda iddiaların yalan olduğunu demişdi. O, gununsesi.info-ya açıqlamasında bildirmişdi ki, iddiaçı Mirzəyevlə qohumdur. Həmin şəxs ona qarşı qərəzlidir və bu üzdən belə davranır.

İddiaçı tərəf də qohum olduqlarını təsdiqləmişdi: "Amma qohumluğumuzun bu işə aidiyyəti yoxdur. İş gördürmüsən, pulunu verməlisən. Adamları işlədib, onların haqqını yemək hara sığar?"

İndi Məhərrəmovla bağlı uzun müddətdir davam edən torpaq qalmaqalı ilə bağlı Ali Məhkəmənin çıxardığı qərar yeni presdent yarada bilər. Söhbət Abel müəllim tərəfindən haqsızlığa məruz qalan digər iddiaçıların da öz hüquqlarını bərpa etmək istiqamətində hərəkətə keçməsindən gedir. Belədə isə sabiq rektor-deputatla, daha doğrusu, illərdir onun adı hallanan qalmaqallarla bağlı qarşıdakı aylarda bir-birindən maraqlı yeni xəbərlər oxusaq, təəccüblənməməliyik.

***Sənan Mirzə***

# Taleh Kazımovdan yeni təyinatlar



***Azərbaycan Mərkəzi Bankının (AMB) rəhbərliyində dəyişiklik olub.***

"Unikal" AMB-yə istinadən xəbər verir ki, Mərkəzi Bankın baş direktoru Ziya Əliyev sədrin müşaviri təyin edilib. Beləliklə, AMB sədrinin müşavirlərinin sayı 5-ə çatıb.

Bundan başqa, Vüsal Cavanşir oğlu Qurbanov, Seydiyev Elrad Eldar oğlu, Mansurov Anar Eldar oğlu və Rəsulov Tərlan İzzət oğlu bu il fevralın 3-dən Mərkəzi Bankın baş direktorları təyin ediliblər.

Qeyd edək ki, Vüsal Qurbanov buna qədər Mərkəzi Bankın Sığorta fəaliyyətinə nəzarət departamentinin direktoru vəzifəsində çalışıb. Elrad Seydiyev AMB-nin Maliyyə bazarlarında əməliyyatlar departamentinin, Anar Mansurov Maliyyə idarəetməsi departamentinin, Tərlan Rəsulov isə Valyuta ehtiyatlarının idarə edilməsi departamentinin rəhbəri olub.

Bununla da Mərkəzi Bankın baş direktorlarının sayı 9-a çatıb.

# Eldar Mansurovun oğluna yüksək vəzifə verildi

***Xəbər verdiyimiz kimi, Mərkəzi Banka yeni baş direktorlar təyin edilib.***

Onlardan biri də Anar Mansurovdur. O, 1986-cı ildə Bakı şəhərində anadan olub. 2008-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetini "Maliyyə-kredit" ixtisası üzrə bakalavr, 2011-ci ildə həmin universiteti, 2022-ci ildə isə "Warwick" Universitetini "Biznesin idarə edilməsi" (MBA) ixtisası üzrə magistr dərəcələrilə bitirib.

Əmək fəaliyyətinə 2005-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Bankında başlayıb, 2022-ci ilin avqust ayından 2025-ci ilin fevral ayınadək Azərbaycan Respublikası Mərkəzi Bankının Maliyyə idarəetməsi departamentinin direktoru vəzifəsində işləyib.

2025-ci ilin fevral ayının 3-dən Mərkəzi Bankın baş direktoru vəzifəsinə təyin edilib. Ailəlidir, 2 övladı var.

"Unikal" saytının məlumatına görə, yeni baş direktor Azərbaycanın məşhur bəstəkarı, xalq artisti Eldar Mansurovun oğludur.

# Müavinət və təqaüd alanlara şad xəbər

***Minimum əməkhaqqının və bir sıra sahələrdə əməkhaqları ilə yanaşı, müavinət və təqaüdlərin də yaxın aylarda artırılması nəzərdə tutulur.***

"Unikal" xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məlumat yayıb. Bildirilib ki, Prezident İlham Əliyevin 23 dekabr 2024-cü il tarixli Sərəncamı ilə icra olunan yeni sosial islahat paketi çərçivəsində minimum pensiya artımı da təmin edilib.

Dövlətimizin başçısının təsdiqlədiyi yeni qanunla 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz və ya 40 manat artırılaraq 320 manata çatdırılıb.

Beləliklə, 2025-ci il fevralın 1-dək məbləği 320 manatdan aşağı olan bütün pensiyalar pensiyaçının hər hansı müraciətinə ehtiyac qalmadan elektron sistem üzərindən, avtomatik artım edilməklə həmin gündən 320 manat olub.

Eyni zamanda 2025-ci il fevralın 1-dən pensiyaya çıxacaq şəxslərə təyin edilən pensiyanın minimum məbləği artıq 280 deyil, 320 manat olacaq.

Hazırda minimum pensiya məbləği 2025-ci il üzrə pensiyaçılar üçün müəyyən edilmiş yaşayış minimumunu (232 manat) 88 manat və ya 38 faiz üstələyir.

Qeyd edək ki, dövlət başçısının 5 fevral 2025-ci il tarixli Sərəncamı ilə bütün pensiyaların 2024-cü il üzrə orta aylıq əməkhaqqının illik artımına uyğun olaraq 8,1 faiz indeksləşdirilməklə bu ilin 1 yanvar tarixindən artırılması da təmin edilib. Həmçinin istehlak qiymətləri indeksinin ötən il üzrə illik səviyyəsinə uyğun olaraq sığortaolunanların fərdi hesablarında 2025-ci il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalları 2,2 faiz indeksləşdirilərək artırılıb.

2018-ci ildən ötən dövrdə aparılan sosial islahatlar nəticəsində ölkəmizdə sosial ödənişlərdə ciddi artımlara nail olunmaqla, o cümlədən minimum pensiya 3 dəfəyədək artırılıb. Eyni zamanda orta aylıq pensiya 2,4 dəfə artıb.

2025-ci ilin əvvəlindən həyata keçirilən yeni sosial islahat paketi çərçivəsində pensiya ilə yanaşı, minimum əməkhaqqının və bir sıra sahələrdə əməkhaqlarının artımı da təmin edilib. Müavinət və təqaüdlərin də yaxın aylarda artırılması nəzərdə tutulur.

Ümumilikdə bu ilin əvvəlindən reallaşdırılan növbəti (2018-ci ildən ötən dövrdə 5-ci) sosial islahat paketi üzrə sosial ödənişlərdə yeni artımlar üçün əlavə 1,4 milyard manat vəsait nəzərdə tutulub və həmin artımlar 3 milyon vətəndaşı əhatə edir.

0_27 IYUI-QARA.qxd 2/6/2025 10:04 PM Page 9



# Vüqar Qurbanovun qardaşına yüksək vəzifə verildi



***Xəbər verdiyimiz kimi, Vüsal Cavanşir oğlu Qurbanov AMB-nin baş direktoru təyin edilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, yeni vəzifəyə təyinat alan Vüsal Qurbanov Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İcraçı direktoru Vüqar Qurbanovun qardaşıdır.

Qeyd edək ki, V.Qurbanov buna qədər Mərkəzi Bankın Sığorta fəaliyyətinə nəzarət departamentinin direktoru vəzifəsində çalışıb.

***Anar Kəlbiyev***

# Azərbaycanda 2 bankın vəzifəli şəxsləri cəzalandırıldı

***Azərbaycan Mərkəzi Bankı (AMB) "PAŞA Bank" ASC-nin və "Yapı Kredi Bank Azərbaycan" QSC-nin vəzifəli şəxslərini inzibati məsuliyyətə cəlb edib.***

"Unikal" AMB-yə istinadən xəbər verir ki, qurumun apardığı cari nəzarət prosesləri çərçivəsində hər iki bankda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin tələblərinin pozulması aşkarlanıb. Son nəticədə İnzibati Xətalar Məcəlləsinin 598.1.1-ci, 598.1.2-ci, 598.4-cü maddələrinə əsasən "PAŞA Bank"ın vəzifəli şəxsi Ağdam Rayon Məhkəməsinin qərarı ilə 10 min manat, Məcəllənin 598.1.1-ci və 598.1.2-ci maddələrinə əsasən isə "Yapı Kredi Bank Azərbaycan"ın vəzifəli şəxsi Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin qərarı ilə 8 min manat cərimə edilib.

# Daha bir plastik cərrahın lisenziyası ləğv edildi

***"Azər-Türk Med" klinikasında plastik cərrah kimi fəaliyyət göstərən Təbəssüm Qurbanovanın da lisenziyası ləğv edilib.***

"Unikal" Lent.az-a istinadla xəbər verir ki, Təbəssüm Qurbanova bir müddət əvvəl əməliyyat zamanı canlı yayın açdığı üçün medianın gündəminə gəlmişdi.

Təbəssüm Qurbanova bir müddət əvvəl əməliyyat zamanı canlı yayım açdığı üçün medianın gündəminə gəlmişdi.

Mediada yayılan məlumatlara görə, Təbəssüm Qurbanova "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin keçmiş sədri, hazırda isə rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Cavid Qurbanovun yaxın qohumudur.

Qeyd edək ki, bundan əvvəl plastik cərrahlar - Sevinc Heydərova, Bəhicə Kərimova, Rəna Quliyeva, Könül Ağamirova və Şövkət Əliyevanın da lisenziyaları ləğv olunub.

Bununla da lisenziyası ləğv olunan plastik cərrahların sayı 6-ya çatıb.

# "Akkreditasiya komissiyası yaranmalı, fəaliyyət lisenziyası verilməlidir" - Tanınmış həkim

***"Bu, yarımçıq da olsa, akkreditasiya prosesi olub. Yəni, sənədlər yoxlanılıb. Sənədlər uyğun gəlmədiyinə görə, ləğv olunub".***

Bunu "Unikal"a açıqlamasında tanınmış həkim, professor Adil Qeybulla bəzi plastik cərrahların lisenziyasının ləğv edilməsindən danışarkən deyib.Onun sözlərinə görə, akkreditasiya komissiyası yaranmalıdır ki, bütün həkimlərə fəaliyyət lisenziyası verilsin: "Onların sənədlərinin düz olub-olmaması nəzərə alınsın. Belə ki, sənədlərin uyğunluğu yoxlanılır və bundan sonra onlara fəaliyyət lisenziyası verilir. Bu, üç, beş və ya yeddi il ola bilər. Ayrı-ayrı ölkələrdə bunlar müxtəlifdir. Bu vaxtında olunsa idi, problemlə üzləşməzdik. Ona görə də dünyada istifadə olunan sistem qurmalıyıq. Sertifikasiya imtahanı ləğv olunmalı, akkreditasiya komissiyası yaranmalıdır. Həkimlər yalnız lisenziya əsasında fəaliyyət göstərməlidir. Bununla problem həllini tapmış olar".

***Anar Kəlbiyev***

# Bəzi məmur balalarının qumar macəraları

## Gizli kazinoların və qumarxanaların ifşası davam edir - Sensasion iddialar!

***Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi qumar oyunlarının təşkilinə qarşı əməliyyat keçirib. KİV-də yayılan məlumata görə, əməliyyatla ölkədə "qumar kralı" kimi tanınan Yusif Baqiyev (Şəkili) də saxlanılıb.***

Ona qarşı ilkin olaraq Cinayət Məcəlləsinin 193-1.3.1 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda pul vəsaitlərini leqallaşdırma-mütəşəkkil dəstə halında birləşməklə törədildikdə) və 244-1.4-cü (qumar oyunlarını təşkil etmə və keçirmə-xüsusilə külli miqdarda gəlir əldə etməklə ) maddələri ilə ittiham elan edilib. Bu maddələrin sanksiyasında 12 ilə kimi azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur.

Binəqədi Rayon Məhkəməsinin qərarı ilə Yusif Baqiyev barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Ağır cinayətlərdə təqsirləndirilən Baqiyevin cinayət işinin detalları barədə əlavə məlumat verilməyib. Hazırda iş üzrə ilkin istintaq aparılır.

Qeyd edək ki, Şəkili Yusif kimi tanınan Yusif Baqiyevin adı mediada tez-tez hallanır. Onun Bakıda yerləşən iaşə obyektlərində qanunsuz qumar oyunları təşkil etdiyi deyilir.

Eyni zamanda, Yusif Baqiyevin Bakıda yerləşən "Medalyon Pub" və "Nuxa" restoranlar şəbəkəsinin sahibi olduğu bildirilir (Qafqazinfo).

Xatırladaq ki, Azərbaycanda qumar oyunlarının təşkili və belə oyunlarda iştirak qadağandır. Bu, inzibati və cinayət məsuliyyəti yaradan hallardır. Qanunsuz mərc və şans oyunları şirkətləri vətəndaşları aldatmaqla yanaşı, vergidən yayınmaq və dövriyyələrini gizlətməklə dövlətə də ciddi ziyan vurur.

Lakin ölkədə gizli qumarxanalar işlədənlərin varlığı da sirr deyil və hüquq-mühafizə orqanları belə halları mütəmadi olaraq aşkarlayaraq qanunvericiliyin müvafiq tələbini pozanları sərt şəkildə cəzalandırır. Məsələn, polis əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat nəticəsində paytaxtın Nəsimi rayonunda yerləşən "Huqqa" restoranında qanunsuz qumar oyunlarının təşkil edildiyi müəyyən olunmuşdu. Bu haqda Daxili İşlər Nazirliyinin yaydığı məlumatda bildirilirdi ki, daxil olmuş məlumat əsasında keçirilən tədbirlərlə qumar oyunlarının təşkilatçısı qeyd edilən restoranın sahibi Rasim Rzayev, həmçinin iştirakçılar Ramal İsmayılov, Vüqar Tahirov, Musa Ağamalıyev və Cavad Kərimov saxlanılıblar. Baxış zamanı restoranda kartlar və qumar oyunlarına qoyulmuş pul vəsaiti aşkar olunaraq maddi sübut kimi götürülüb.

Araşdırmalarla obyektin gündüzlər restoran, axşam saatlarında isə qumarxana kimi fəaliyyət göstərdiyi müəyyənləşdirilmiş, faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılmışdı.

Yerli KİV-də müxtəlif vaxtlarda yer alan iddialardan isə belə aydın olur ki, Bakıda bir sıra çay evləri, internet klublar, restoranlar adı altında qanunsuz kazino biznesinə rəvac verənlər var. Hətta iddia olunur ki, paytaxtda fəaliyyət göstərən əksər kazinolar bir neçə şəxsin əlində cəmlənib. Onlar özlərini "toxunulmaz şəxs" statusunda aparır, himayədarları olduqlarını bəyan edir, lotu dəstələri saxlayırlar.

Medianın iddialarına görə, ümumilikdə isə, hər ay milyonlarla manatın qanunsuz olaraq qəsb edildiyi bu kazinolar neçə-neçə ailənin də bədbəxt olmasına yol açıb. Hansı ki, bir gecənin içində bu qumarxanalarda bütün mal varlığını - evini, maşınını, obyektlərini uduzanların sayı onlarladır.

Qeyd edək ki, Azərbaycanda gizli kazinolar əsasən Bakı, Xırdalan və Sumqayıt ərazilərində, habelə bir çox rayonlarda fəaliyyət göstərir. Son olaraq "qumar kralı" kimi tanınan Yusif Baqiyevin (Şəkili) saxlanılması belə iddialarda həqiqət payının çox olduğunu düşünməyə əsas verir.



Eyni zamanda iddialara görə, Bakıda gizli şəkildə fəaliyyət göstərən kazino və qumarxanaların sadiq müştəriləri arasında isə "papanın gül balaları" - pula pul deməyən məmur övladları kifayət qədərdir. Elə məmurlar da... (Kiçik haşiyə: illər əvvəl Azərbaycan məmurlarından birinin övladının qumarda 2 milyonluq mülk uduzduğu barədə söz-söhbətlər yayılmış və ciddi rezonans doğurmuşdu...) Düzdür, beləri özlərinin "qumar azarlarını" daha çox ölkədən kənarda "öldürməyə" üstünlük verirlər. Buna əsas səbəb isə həm təhlükəsizlik məsələsi, həm də dilə-dişə düşmək qorxusudur. Hətta bir neçə il öncə varlı azərbaycanlıların kazino həvəsi ilə əsasən qonşu Gürcüstana - Tiflis və Batumiyə üz tutduqları vurğulanırdı. Bildirilirdi ki, azərbaycanlı varlıları, o cümlədən, bəzi müxtəlif yüksək çinli məmurları Tiflis kazinolarında əsasən həftəsonları görmək olar. Yay aylarında tətil üçün Batumiyə üz tutanlar üçün də buradakı kazinolar ən sevimli məkanların başında gəlir.

Bununla belə, Bakıdakı gizli kazino və qumarxanalarda "azarını öldürməyə" həvəs göstərən "papanın gül balaları" da az deyil. Bir çoxlarının fikrincə, əks təqdirdə həmin qeyri-leqal obyektlərin həm gəlirli işləməsi, həm də qanunvericiliyin tələblərini pozmağa cəsarət etməsi mümkün olmazdı...

***Toğrul Əliyev***

0_27 IYUI-QARA.qxd 2/6/2025 10:05 PM Page 10



# Vilyam Hacıyevin yaxınları arasında sərvət davası

## Həbsdəki sabiq icra başçısının oğlu arvadı ilə nəyi bölə bilmir?



***Həbsdə olan keçmiş icra başçısı Vilyam Hacıyevin oğlu arvadı ilə əmlak mübahisəsinə başlayıb."Qafqazinfo"-nun bir müddət öncə yaydığı məlumata görə, həyat yoldaşı uzun illər prokurorluqda işləmiş Məhəmməd Hacıyevi məhkəməyə verib.***

Mübahisənin səbəbi isə keçmiş prokuror M.Hacıyevin "Range Rover" markalı avtomobilidir.

İddiaçı C.Hacıyeva "Range Rover"in birgə evlilik dövründə alındığını əsas gətirərək yarısına pay hüququnun tanınmasını tələb edir.

Maraqlıdır ki, Hacıyevlər rəsmən boşanmayıblar. Onlar evli ola-ola əmlak davası edirlər. Cavabdeh Hacıyev isə arvadının tələbi ilə razılaşmır. Bu səbəbdən iş məhkəməyə qədər gəlib çıxıb.

Daha bir diqqətçəkən məqam isə bu avtomobil Vilyam Hacıyevin cinayət işi ilə bağlı dövlət nəfinə müsadirə edilməsidir. Görünən odur ki, bu tələbi qəbul edilsə, iddiaçı müsadirə qərarına qarşı da məhkəmə başladacaq.

Vilyam Hacıyev 2004-2006-cı illərdə Göygöl, 2006-2012-ci illərdə Samux, 2012-2020-ci illərdə isə İmişli rayonunun icra başçısı vəzifəsində işləyib. O, 2020-ci ilin mayında Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən saxlanılıb. O, tutularkən evində və iş otağında aparılan axtarış zamanı 1 milyondan çox avro, funt-sterlinq və başqa əskinaslarda vəsait tapılıb.

Vilyam Hacıyevə 2022-ci ilin iyulunda hökm oxunub və o, 12 il azadlıqdan məhrum edilib. Sabiq icra başçısı Cinayət Məcəlləsinin 179 (mənimsəmə), 308 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 313 (vəzifə saxtakarlığı), 311 (rüşvət alma) və başqa maddələrlə təqsirli bilinib. 2024-cü ildə isə Vilyam Hacıyevin kassasiya şikayətinə baxılıb. Ali Məhkəmədə hakim Şahin Yusifovun sədrliyi ilə keçirilən prosesdə sabiq icra başçısının cəzası azaldılaraq 8 il 6 ay təyin edilib.

Qeyd edək ki, Vilyam Hacıyev İmişlinin icra başçısı olduğu müddətdə oğlu Korrupsiyaya Qarşı Mübarizə İdarəsində müstəntiq işləyirdi. Atasının həbsindən sonra o, bu vəzifəsindən uzaqlaşdırılıb. Bir müddət sərəncamda qalan Məhəmməd Hacıyev sonradan bölgədə prokuror köməkçisi təyin edilsə də, 2020-ci ilin aprelində həmin vəzifəsindən də uzaqlaşdırılıb.

Xatırladaq ki, sabiq icra başçısı həbs ediləndən sonra özü və ailə üzvlərinin 5 milyon manatlıq əmlakları üzərinə həbs qoyulub.

Onu da deyək ki, 2020-ci ilin mayında Səbail rayon Məhkəməsində Vilyam Hacıyev özü barəsində həbs-qətimkan tədbiri seçilməsi üçün istintaq orqanının təqdimatına baxılarkən məhkəmə binasının qarşısında ailə üzvlərinə səslənmiş və ilginc fikirlər səsləndirmişdi. Sabiq icra başçısı məhkəmə binasından çıxarılıb, maşına mindirilərkən ailə üzvlərini - oğlunu və həyat yoldaşını görüncə belə demişdi: "Hər şey yaxşı olacaq. Bu günlər keçəcək. Haqq yerini tapacaq..."

Həmin vaxt Vilyam müəllimin bu sözləri kimə, ya da kimlərəsə arxalanması kimi yozulmuş, elə ona görə də həbsdə çox qalmayacağına işarə olaraq qarşılanmışdı. Lakin Hacıyev ağır cəza aldı, bununla yanaşı, onun ümumi dəyəri milyonlarla manatlıq əmlakları müsadirə edildi. Ardınca onun ailə üzvləri əmlakların bir hissəsini geri qaytarmaq üçün mübarizəyə başladı. Belə ki, 2023-cü ildə sabiq icra başçısının həyat yoldaşı Cülyetta İbrahimova və oğlu Məhəmməd Hacıyev adlarına rəsmiləşdirilmiş əmlakların müsadirə olunmasından narazı qalaraq apellyasiya şikayəti veriblər.

Şikayət ərizəsində Cülyetta Hacıyeva 5 milyon 218 min manatlıq mənzil və avtomobillərin, Məhəmməd Hacıyev isə 126 000 manatlıq "Land Rover" markalı avtomobilin müsadirədən azad olunmasını istəyib. Lakin sabiq icra başçısının ailə üzvlərinin həmin iddiaları təmin edilməyib.

İndi isə ilginc məqam ortaya çıxıb: belə məlum olur ki, V.Hacıyevin oğlu öz həyat yoldaşı ilə məhz dövlət müsadirəsindəki bahalı avtomobili bölə bilmirlər.

Görünür, bu da korrupsiya ilə sərvət toplayıb cəzasını ən ağır formada - həbslə çəkənlərin taleyidir: vəzifələrini də itirirlər, azadlıqlarını da, lakin ətrafındakılar bundan çox yenə də var-dövləti özlərinə dərd edirlər. İnanılmazdır, eyni zamanda ibrətamizdir. Rüşvətə, mənimsəməyə bulaşan məmurlar baxıb dərs ala bilərlər, əlbəttə, əgər dərs almaq fikirləri varsa...

***Sənan Mirzə***

# Azərbaycanda orta aylıq əməkhaqqı artıb




***Ötən ilin ilkin məlumatlarına əsasən, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 8,1 faiz artaraq 1009,2 manat təşkil edib.***

Dövlət Statistika Komitəsindən "Unikal"a bildirilib ki, iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

2025-ci il yanvarın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ilkin məlumatlara əsasən 1778,5 min nəfər olub, onlardan 882,8 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 895,7 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Muzdla işləyənlərin 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,5 faizi təhsil, 13,5 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi tikinti, 6,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi peşə, elmi və texniki fəaliyyət, 2,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi maliyyə və sığorta fəaliyyəti, 15,1 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.

# Pensiya alanların nəzərinə - Artımlar belə hesablanacaq



***Prezident İlham Əliyevin imzaladığı "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" Sərəncam ilə bütün pensiyalar indeksləşdirilərək artırıldı.***

"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, qanunvericiliyə əsasən, vahid indeksasiya sistemi bütün əmək pensiyası alan vətəndaşlarımızın pensiya məbləğlərinin hər il yanvar ayında əvvəlki il üzrə orta aylıq əmək haqqındakı artım faizinə uyğun artırılmasını nəzərdə tutur.

"Bu zaman indeksləşdirmə pensiya məbləğinə tam olaraq şamil edilərək artım hesablanır. Artımın hesablanması formulası belədir: Pensiya məbləği X İndeksasiya faizi = Artırılmış məbləğ. Məsələn, pensiyası 550 manat olan vətəndaşımız üçün artım faizi belə hesablanacaq: 550 manat X 8.1% = 44.55. Yəni, vətəndaşımızın pensiya məbləği artımdan sonra 594.55 manat olacaq.Və ya, 400 manat pensiya alan vətəndaşımız üçün artım belə hesablanır: 400 manat X 8.1 % = 32.4 manat. Bu halda yeni pensiya məbləği 432.4 manat olacaq. Yəni, məbləğindən asılı olmayaraq hər bir pensiya tam olaraq indeksasiya faizi nəzərə alınmaqla artırılacaq".

Qeyd edək ki, indeksləşdirmə bütün növ əmək pensiyalarına şamil olunur. "Əmək pensiyaları haqqında" qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Vətəndaş növündən asılı olmayaraq əmək pensiyası alırsa, onun pensiya məbləğinə artım hesablanacaq.

# Dəhşətli qəzada ölənlərdən biri qazi imiş



***Xəbər verdiyimiz kimi, fevralın 4-ü gecə saat 00 radələrində Xəzər rayonu Qala-Zirə yolunda 3 nəfərin ölümü ilə nəticələnən yol qəzası baş verib.***

"Qafqazinfo"nun məlumatına görə, qəzada həyatını itirən şəxslərdən biri - 39 yaşlı Rövşən Emin oğlu Hüseynov Vətən müharibəsi qazisi imiş. 2020-ci ilin oktyabrın 13-ü döyüşdə ağır yaralanan Rövşən 3-cü qrup əlilliklə ordudan təxris edilib. Onun 2 azyaşlı övladı yadigar qalıb.

Qeyd edək ki, hadisə vaxtı Samir Paşayevin idarə etdiyi "Saipa" markalı avtomobillə 22 yaşlı Nazim Musayevin sükanı arxasında olduğu "Toyota Prius" markalı maşın toqquşub. Nəticədə "Saipa"da olan sərnişinlər - Polad Salmanov, Rövşən Hüseynov və "Toyota Prius"un sərnişini Nizami Soltanov hadisə yerində ölüb. "Toyota Prius"un sürücüsü isə hadisə yerindən qaçıb.

Faktla bağlı cinayət işi başlanılıb.

# Çin Azərbaycanda elektrikli avtobuslar istehsal edəcək

***Cari ildə Çinin BYD şirkəti tərəfindən elektrik mühərrikli avtobusların istehsalı müəssisəsinin fəaliyyətə başlaması planlaşdırılır.***

Bunu İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) İdarə Heyətinin sədri Seymur Adıgözəlov brifinqdə çıxışı zamanı bildirib.

"Artıq şirkətin istehsalı üçün lazımi infrastruktur qurulub, yaxın günlərdə isə istehsal xəttinin quraşdırılması istiqamətində işlərə başlanması nəzərdə tutulur. Layihənin investisiya həcmi 29 milyon manatdan çoxdur", - deyə S.Adıgözəlov qeyd edib.

0_27 IYUI-QARA.qxd 2/6/2025 10:05 PM Page 11



# Hansı rayonların sakinlərinin əmanəti daha çoxdur?

***2025-ci ilin yanvarın 1-nə olan məlumatlara görə, Azərbaycan üzrə banklarda yerləşdirilən əmanətlərin ümumi məbləği 14,7 milyard manata yaxın olub.***

"Unikal" Mərkəzi Banka istinadən xəbər verir ki, ən böyük əmanət Bakı sakinləri tərəfindən qoyulub. Bakı əhalisi banklara ümumilikdə 12,9 milyard manatdan çox əmanət yerləşdirib, bu da ölkə üzrə ümumi əmanətlərin 87,7 faizini təşkil edir.

Sumqayıt şəhəri 334,8 milyon manatla ikinci, Gəncə şəhəri isə 210 milyon manatla üçüncü sıradadır. Abşeron rayonu, Xaçmaz rayonu və Lənkəran rayonu isə 190,2 milyon manat, 71,5 milyon manat və 64,4 milyon manatla daha yüksək əmanət məbləğləri ilə diqqət çəkir.

Ən az əmanət yerləşdirilən rayonlar isə Xızı, Sədərək, Zəngilan, Laçın rayonlarıdır.

100 milyon manatdan çox olan şəhər və rayonlar:
Bakı şəhəri - 12,954.4 milyon manat
Sumqayıt şəhəri - 334.8 milyon manat
Gəncə şəhəri - 210.0 milyon manat
Abşeron rayonu - 190.2 milyon manat
10 milyon manatdan 100 milyon manata qədər olan rayonlar:
Xaçmaz rayonu - 71.5 milyon manat
Lənkəran rayonu - 64.4 milyon manat
Naxçıvan şəhəri - 53.8 milyon manat
Mingəçevir şəhəri - 48.9 milyon manat
Bərdə rayonu - 41.4 milyon manat
Zaqatala rayonu - 37.3 milyon manat
Quba rayonu - 37.3 milyon manat
Şəki rayonu - 35.0 milyon manat
Cəlilabad rayonu - 33.9 milyon manat
Qazax rayonu - 32.4 milyon manat
Tovuz rayonu - 30.2 milyon manat
Şirvan şəhəri - 26.5 milyon manat
Qəbələ rayonu - 26.2 milyon manat
Şəmkir rayonu - 25.1 milyon manat
Ağcabədi rayonu - 23.9 milyon manat
Salyan rayonu - 22.6 milyon manat
Göyçay rayonu - 22.3 milyon manat
Qusar rayonu - 19.6 milyon manat
Ağstafa rayonu - 18.9 milyon manat
Masallı rayonu - 18.6 milyon manat
İsmayıllı rayonu - 18.5 milyon manat
Şamaxı rayonu - 17.0 milyon manat
Yevlax rayonu - 16.7 milyon manat
İmişli rayonu - 16.3 milyon manat
Sabirabad rayonu - 15.5 milyon manat
Ağdaş rayonu - 15.1 milyon manat
Kürdəmir rayonu - 13.9 milyon manat
5 milyon manatdan 10 milyona qədər olan rayonlar:
Beyləqan rayonu - 11.9 milyon manat
Biləsuvar rayonu - 10.8 milyon manat
Balakən rayonu - 10.0 milyon manat
Qax rayonu - 9.9 milyon manat
Ağdam rayonu - 8.0 milyon manat
Goranboy rayonu - 7.7 milyon manat
Ağsu rayonu - 7.6 milyon manat
Tərtər rayonu - 7.5 milyon manat
Füzuli rayonu - 6.5 milyon manat
Saatlı rayonu - 6.2 milyon manat
Göygöl rayonu - 5.9 milyon manat
Siyəzən rayonu - 5.9 milyon manat
Gədəbəy rayonu - 5.7 milyon manat
Ucar rayonu - 5.7 milyon manat
Astara rayonu - 5.6 milyon manat
Şərur rayonu - 5.2 milyon manat
Neftçala rayonu - 5.0 milyon manat
Şabran rayonu - 4.9 milyon manat
Zərdab rayonu - 4.8 milyon manat
Oğuz rayonu - 4.7 milyon manat
1 milyon manatdan 5 milyona qədər olan rayonlar:
Hacıqabul rayonu - 3.5 milyon manat
Samux rayonu - 2.9 milyon manat
Ordubad rayonu - 2.9 milyon manat
Babək rayonu - 2.7 milyon manat
Culfa rayonu - 2.5 milyon manat
Naftalan şəhəri - 2.3 milyon manat
Lerik rayonu - 2.3 milyon manat
Şahbuz rayonu - 1.8 milyon manat
Yardımlı rayonu - 1.6 milyon manat
Qobustan rayonu - 1.5 milyon manat
Daşkəsən rayonu - 1.5 milyon manat
Kəngərli rayonu - 1.4 milyon manat
Xankəndi şəhəri - 1.0 milyon manat
1 milyon manatdan az olan rayonlar:
Xızı rayonu - 0.9 milyon manat
Sədərək rayonu - 0.7 milyon manat
Zəngilan rayonu - 0.3 milyon manat
Laçın rayonu - 0.1 milyon manat
Cəbrayıl rayonu - 0.0 milyon manat
Xocalı rayonu - 0.0 milyon manat
Xocavənd rayonu - 0.0 milyon manat
Şuşa rayonu - 0.0 milyon manat
Kəlbəcər rayonu - 0.0 milyon manat
Qubadlı rayonu - 0.0 milyon manat

# Deputatın məşhur şirkətinin başı qalmaqaldan açılmır

## Məşhur Məmmədovun MMC-sini növbəti dəfə böyük məbləğdə cərimə gözləyir - Nə baş verib?

***Abşeron rayonu, Xırdalan şəhəri ərazisində fəaliyyət göstərən "Embawood" MMC atmosfer havasına normadan çox zəhərli tüstü buraxılmasına görə cərimələnib.***

Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin və Ətraf Mühitin Çirklənməsinin Monitorinq Qrupu tərəfindən "Embawood" MMC-yə İnzibati Xətalar Məcəlləsinin 233.1-ci maddəsi ilə protokol tərtib edilib.

İnzibati Xətalar Məcəlləsinin 233.1-ci maddəsinə görə ətraf mühitə atılan, axıdılan və ya basdırılan zərərli maddələrin miqdarının yol verilə bilən normativlərdən artıq olmasına görə vəzifəli şəxslər 2500 manatdan 4000 manatadək məbləğdə, hüquqi şəxslər 10500 manatdan 12500 manatadək məbləğdə cərimə edilir.



İşə 14.02.2025-ci il tarixində Abşeron Rayon Məhkəməsində baxılacaq.

Əldə etdiyimiz məlumata görə, "Embawood" MMC-nin istehsalat sahəsindən atmosfer havasına zəhərli tüstü atması ilə bağlı narazılıqlar bir müddətdir davam edir. Həmin istehsal sahəsinə yaxın ərazidə yaşayan sakinlər artıq tüstü məsələsindən boğaza yığılıblar və şikayətlərini KİV-ə də ünvanlayıblar. Lakin müəssisə heç nə olmamış kimi fəaliyyət göstərməkdədir.

Maraqlıdır ki, bir müddət əvvəl Dövlət Ekoloji Təhlükəsizlik Xidməti də Xırdalan şəhəri ərazisində fəaliyyət göstərən "Embawood" MMC-nin istehsalat sahəsində atmosfer havasına tüstünün yayılması ilə bağlı şikayətləri araşdırmış, bu araşdırma nəticəsində fakt təsdiqini tapmışdı. Xidmət rəsmisi Asif Məcidov bildirmişdi ki, əməkdaşı olduğu qurumun və Ətraf Mühitin Çirklənməsinin Monitorinq Qrupunun əməkdaşları tərəfindən aparılan araşdırma və ölçmə işləri zamanı sözügedən müəssisənin istehsalat sahəsindən atmosfer havasına atılan tullantıların miqdarının normadan artıq olduğu müəyyən edilib. Sitat: "Faktla bağlı akt tərtib olunub. Müəssisənin hüquqi şəxs qismində cərimələnməsi üçün qanunamüvafiq tədbirlər görülür".

Lakin cərimələnməsinə baxmayaraq, istehsalat müəssisəsi qanunsuz əməlinə davam edib. Sakinlərin fikrincə, bunun səbəbi şirkətin arxasında tanınmış biznesmen və iki çağırış Milli Məclisin üzvü olmuş bir şəxsin dayanmasıdır. Söhbət deputat Məşhur Məmmədovdan gedir.

Qeyd edək ki, "Embawood"un Məşhur Məmmədova məxsusluğu təzə xəbər deyil. Bu barədə mediada dəfələrlə yazılıb. O, 1996-2011-ci illərdə "Embawood" şirkətinin təsisçisi və baş direktoru, 2011-2013-cü illərdə "Embawood" Gürcüstan şirkətinin baş direktoru, 2013-2015-ci illərdə "Embawood" şirkətinin təsisçisi və direktor müavini işləyib.

2015-ci ildən etibarən "Progress Construction" şirkətinin təsisçi və baş direktoru kimi fəaliyyət göstərməyə başlayan Məşhur Məmmədovun "Embawood"da hər hansı vəzifəsi olmasa da, şirkətin fəaliyyətinə faktiki nəzarət etdiyi vurğulanır.

Şirkətin istehsal sahəsinə yaxın ərazilərdə yaşayan sakinlərin bildirdiyinə görə, bir dəfə şikayət ediblər, bundan sonra zavod cərimələnib. Sitat: "Amma indi yenə havaya qatı tüstü buraxırlar. Bu vəziyyət gündə ən azı üç dəfə təkrarlanır. Səhər saat 07:00-da yuxudan dururuq ki, ətraf qatı tüstüdür. Pis qoxudan ağzımızı bağlayırıq. Evdə olanda isə pəncərələri açmırıq ki, tüstü getsin sonra evi havalandıraq. İstehsalat müəssisəsi yaşayış binalarına yaxın yerləşir. Günorta saat 12:00 radələrində bir, axşam saat 19:00 radələrində isə bir tüstü buraxırlar. Gündə ən azı üç dəfə biz zavodun buraxdığı tüstünün qoxusundan əziyyət çəkirik. Ətrafı yanmış plastik qoxusu bürüyür. Biz yanan maddənin nə olduğunu bilmirik. Amma tüstüdən görürük ki, havaya qatı tüstü yayılır. Kimyəvi maddələr havaya hopur, biz də o hava ilə nəfəs almalı oluruq. Burada yaşayan sakinlərin hamısı qorxur ki, axırda özümüz, uşaqlarımız pis xəstəlik tapacaq. Çünki, ekoloji təmiz mühitdə yaşamırıq. Ciyərlərimiz gündə üç dəfə tüstü qəbul edir. Ən pisi isə odur ki, bu müəssisənin yaşayış binalarının yanında fəaliyyətinə xitam verən yoxdur. Hara şikayət edəcəyimizi də bilmirik" (Mənbə: "Sputnik Azərbaycan").

Görünən odur ki, sabiq deputata aid olduğu deyilən şirkəti növbəti dəfə, üstəlik, böyük məbləğdə cərimə gözləyir. Bu cərimə rəsmiləşdikdən sonra Məşhur Məmmədovun MMC-sinin sakinləri tüstü ilə boğub-boğmayacağını zaman göstərəcək.

Xatırladaq ki, 62 yaşlı M.Məmmədov ilk dəfə 2020-ci ildə VI çağırış Milli məclisin üzvü seçilib. O, 2024-cü ildə ikinci dəfə parlamentə mandat qazanıb.

"Embawood" ilk dəfə 1996-cı ildə, Məşhur müəllimin doğulduğu Masallı rayonunda mebel istehsalına başlayıb. 2000-ci ildə Xırdalanda ikinci fabriki açıb, 2005-ci ildə isə regionlarda böyük anbarlarını yaradıb.

2014-cü ildən etibarən şirkət ölkə xaricində də fəaliyyətə start verib. İlk olaraq Qazaxıstanda mebel fabriki qurulub.

Hazırda "Embawood"un Gürcüstan, Qazaxıstan, Ukrayna kimi ölkələr də daxil olmaqla ümumilikdə 6 fabriki, 200-dən çox mağazanın daxil olduğu pərakəndə satış şəbəkəsi mövcuddur. Qazaxıstanda 26, Gürcüstanda 21 mağaza və Ukraynada 20-dən çox mağaza, dünyanın digər ölkələrində isə "Embawood" şirkətinə məxsus satış nöqtələri vardır. Azərbaycanda isə deputata məxsus olduğu deyilən MMC-nin ümumi sahəsi 85.000 kv.metrdən çox olan 141 mağazasının olduğu vurğulanır.

Onu da deyək ki, Məşhur Məmmədov bu şirkətin faktiki sahibi olduğuna, eləcə də adının son olaraq "tüstü qalmaqalı" ilə gündəmə gəlməsinə və böyük məbləğdə cərimələnməsinə dair xəbərlərə hələ ki, münasibət bildirməyib.

Sonda əlavə edək ki, axır aylarda "Embawood" barədə ayrı-ayrı dövlət qurumları tərəfindən cərimə protokollarının yazılması az qala adət halını alıb...

***Toğrul Əliyev***

## 5.3.1. vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Vətəndaş cəmiyyətinin inkişafında yeni mərhələ

## Vüqar Tofiqli: "Budəfəki bələdiyyə seçkilərini Azərbaycanda seçki prosesinin uğurlarından saymaq olar"

***Bələdiyyələr vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunur. Bələdiyyələrin vətəndaş cəmiyyəti və dövlət quruculuğunda rolu danılmazdır. Azərbaycanda bələdiyyə institutunun təkmilləşdirilməsi, yerli özünüidarə orqanlarının fəaliyyətinin artırılması istiqamətində son illər çox işlər görülüb.***

Bu gün yerli əhəmiyyətli sosial-iqtisadi məsələlərin həllində fəallıq göstərən, vətəndaşlara köməkilik göstərən, ərazi üzrə müəyyən yeniliklərə imza atan bələdiyyələr az deyil. Artıq əhali bir çox sosial problemlərin həllində bələdiyyələrə üz tutur, onlardan kömək umur. Bələdiyyələr yaşıllıqların salınıb qorunmasında, təmizlik-abadlıq, tikinti işlərində, suvarma, kollektor şəbəkələrinin təmizlənməsində, qaz, işıq xətlərinin bərpa olunmasında yaxından iştirak edir. Bu işlər bələdiyyələrin öz imkanları və vəsaitləri hesabına həyata keçirilir. Ölkəmizdə sosial, istərsə də iqtisadi sahələrdə islahatların həyata keçirilməsində bələdiyyələr də yaxından iştirak edirlər. Bələdiyyələrin fəaliyyətlərinin təhlili göstərdi ki, kiçik bələdiyyələr zəif olur və qarşısına böyük məqsədlər qoya bilmirlər. Məhz bu səbəbdən də ölkəmizdə kiçik bələdiyyələrin birləşdirilməsi prosesi gedir. Nəticədə kifayət qədər dolğun, müasir tələblərə cavab verən qurumlar formalaşdırılır. "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" qanuna əsasən, əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla Milli Məclisin qərarı ilə digər bələdiyyələrlə birləşdirilir. Bu qanunun tələblərinə əsasən, birləşmə ilə bağlı bələdiyyələrin Milli Məclisə təqdim etdikləri rəylərə baxılıb və nəticədə 1400 bələdiyyənin birləşdirilməsi yolu ilə ölkə ərazisində bələdiyyələrin ümumi sayının 684-ə endirilməsi nəzərdə tutulub. Bu addım bələdiyyələrdə idarəetmənin effektivliyinin artırılmasına, resurslardan qənaətlə istifadə edilməsinə, xidmətlərin



keyfiyyətinin artırılmasına, regionların balanslı inkişafının təmin edilməsinə, bələdiyyələr arasında daha sıx əməkdaşlığın qurulmasına yönəlib.

Yanvarın 29-da Azərbaycanda növbəti bələdiyyə seçkiləri keçirildi. 118 dairə üzrə seçkilərdə 16 mindən çox namizəd iştirak etdi. Mərkəzi Seçki Komissiyasının (MSK) saytında artıq lider namizədlərin adları açıqlanıb. Seçkidən saatlar sonra isə MSK sədri Məzahir Pənahov brifinqdə bildirmişdi ki, 685 bələdiyyənin 413-ü artıq formalaşmış hesab edilir, lider namizədlərin sayı 7 min 791 nəfərdir. Onun sözlərinə görə, bütün dairələrdə seçkilər normal keçib və rəhbərlik etdiyi quruma heç bir şikayət daxil olmayıb. Səsvermənin şəffaflığını təmin etmək üçün bütün digər vasitələrlə yanaşı, 1000 seçki məntəqəsində veb-kameralar da quraşdırılıb. Veb-kameralar quraşdırılmış seçki məntəqələrinin siyahısı media subyektlərində dərc olunub və MSK-nın internet səhifəsində yerləşdirilib.

"Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyinin sədri Vüqar Tofiqli "Unikal" qəzetinə müsahibəsində bildirib ki, bələdiyyə seçkilərini demokratik adlandırmaq olar. O, bildirib ki, bələdiyyə seçkiləri sakit keçib.

" Bu dəfə keçirilən bələdiyyə seçkilərindən elə ciddi şikayətlər olmadı. Seçki prosesinə təsir edəcək hər hansı bir məqam qeydə alınmadı. Qeyd edim ki, hər bir dövlət çalışır ki, seçkiləri demokratik prinsiplərə uyğun şəkildə keçirsin. Bələdiyyə seçkiləri həqiqətən müəyyən standartlara cavab verəcək səviyyədə keçirildi. Seçkidə müşahidə proseslərinin keçirilməsi, kameralarla seçki prosesinin izlənilməsi, bundan əvvəl isə formalaşdırılan seçki məntəqələrinə işgüzar, bacarıqlı və təcrübəli insanların seçilməsi müəyyən mənada seçki prosesinə müdaxilənin qarşısını almış oldu. Bu seçkilərin demokratik seçki prosesinə uyğun keçirildiyindən kütləvi şəkildə hansısa məntəqələrdə seçkinin nəticəsinin ləğvi gözlənilmir. Bunu da Azərbaycanda seçki prosesinin uğurlarından saymaq olar ", deyə V. Tofiqli bildirib.

Müsahibimiz əlavə edib ki, gələcəkdə bəzi inkişaf etmiş ölkələrdəki kimi Azərbaycanda da onlayn səsvermə prosesinin tətbiqinə üstünlük verilməsi məqsədəuyğun addım olardı.

Xatırladaq ki, Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri 12 dekabr 1999-cu ildə keçirilib. O dövrdə Respublikamızda 2700 bələdiyyə yaradılsa da, sonradan kiçik bələdiyyələrin birləşdirilməsi nəticəsində bələdiyyələrin sayı 1771- ə endirildi. İlk bələdiyyə seçkilərinə hazırlıq dövründə püşkatma yolu 74 ərazi seçki komissiyası və 4683 məntəqə seçki komissiyası yaradılıb, bunların da tərkibində ümumən 90 min nəfərdən artıq vətəndaş seçkinin təşkili ilə məşğul olub. Həmçinin seçkilərdə 43 min nəfərdən çox vətəndaş bələdiyyə üzvlüyünə namizəd olmaq üçün müraciət edib. Müraciət edənlərin təqribən 51 faizi bitərəf, 49 faizi isə siyasi partiyaların üzvləri olub. Seçki günü respublika üzrə seçki siyahılarına daxil olmuş 4 milyon 312 min 265 nəfər seçicinin 52,6 faizi səsvermədə iştirak edib. Səsvermənin nəticəsi olaraq 20456 nəfər bələdiyyə üzvü seçilib. Demokratik qaydada, seçicilərin yüksək fəallığı ilə keçirilmiş seçkilər nəticəsində Azərbaycan Respublikasında 51 şəhər, 8 şəhərdə rayon, 123 qəsəbə və 2 409 kənd bələdiyyəsi seçildi. 1999-cu ildə keçirilən ilk bələdiyyə seçkiləri Yeni Azərbaycan Partiyasının inamlı zəfəri ilə başa çatıb .

Bu gün Azərbaycanda yerli özünüidarətmə orqanları yeni inkişaf yolundadır. Onların vətəndaş cəmiyyətinin və hüquqi dövlət quruculuğu yönündə fəaliyyətləri cəmiyyətdə idarəçiliklə bağlı islahatların aparılmasına olan ümidləri daha da artırır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Quş qripi ilə bağlı əhaliyə xəbərdarlıq

***Xəbər verildiyi kimi, son illər dünyada yüksək patogen quş qripi xəstəliyi üzrə epizootoloji vəziyyət gərgin olaraq qalmaqdadır. Ölkəmiz köçəri quşların yaz və payız miqrasiya marşrutlarının əhatəsində olduğu üçün sözügedən xəstəlik üzrə riskli region hesab edilir.***

"Unikal" xəbər verir ki, bu barədə Qida Təhlükəsizliyi Agentliyi məlumat yayıb.

Bildirilib ki, xəstəliyin izlənməsi daimi olaraq Agentlik tərəfindən diqqət mərkəzində saxlanılır. Belə ki, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) təqdim etdiyi məlumatlar əsasında xəstəlik baş verən ölkələrin müxtəlif ərazilərindən ölkəmizə riskli məhsulların idxalına məhdudiyyətlər tətbiq edilir. Bununla yanaşı, xəstəliyə qarşı epizootoloji monitorinqlər aparılır. Son monitorinqlərin nəticələrinə əsasən ölkəmizdə quş qripi xəstəliyi qeydə alınmayıb.

Agentlik bununla belə vətəndaşlara, o cümlədən ailə və fermer təsərrüfatları sahiblərinə, sənaye müəssisələri rəhbərlərinə xəbərdarlıq edərək, aşağıdakı zəruri tələblərə əməl olunmasının vacibliyini diqqətə çatdırır:

- ailə təsərrüfatlarında və müxtəlif həcmli fermer təsərrüfatlarında quşların yalnız qapalı şəraitdə saxlanması, təsərrüfatda olan quşların və yemlərin vəhşi quşlarla təmasının qarşısının alınması;
- ölü halda çöl və ev quşlarına rast gəldikdə, bu barədə aidiyyəti üzrə məlumat verilməsi (AQTA-nın "1003-Çağrı Mərkəzi" və regional bölmələri, rayon baytarlıq idarələri və s.);
- quşlarla təmas zamanı (qulluq, yemləmə, daşınma və s.) gigiyena qaydalarına ciddi şəkildə əməl olunması və sanitariya-gigiyena tələblərinin gözlənilməsi;
- quşların nəqliyyat vasitələrində açıq şəkildə, baytarlıq nəzarətindən kənar və müşayiətedici baytarlıq sənədləri olmadan daşınmaması;
- quşların açıq şəkildə satılmasına və ya yol kənarlarında, ticarət obyektlərində, ictimai iaşə müəssisələrində və digər yerlərdə diri halda satışının, yaxud nümayiş olunmasının həyata keçirilməməsi;
- qoruq ərazilərində, parklarda, dəniz kənarında və digər açıq ərazilərdə vəhşi və sinantrop (yaşayış yerlərində məskunlaşmış göyərçin, sərçə, qarğa və s.) quşlarla təmasa yol verilməməsi;
- təsərrüfatlara başqa təsərrüfatlardan quş, yem və qulluq əşyalarının gətirilməməsi və sair.

0_27 IYUI-QARA.qxd 2/6/2025 10:05 PM Page 13



# Təyyarə qəzasında xəsarət alanların son durumu



***Bakı-Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Aktau yaxınlığında qəzaya uğraması nəticəsində xəsarət alanlardan 4 (3 qadın, 1 kişi cinsli olmaqla) nəfərin müalicəsi TƏBİB-in tabeliyindəki tibb müəssisələrində davam etdirilir.***

TƏBİB-dən "Unikal"a bildirilib ki, 1 nəfərin (qadın cinsli) müalicəsi Yeni Klinikada, 2 nəfərin (1 kişi, 1 qadın cinsli olmaqla) fizioterapevtik müalicəsi Tibbi Reabilitasiya Mərkəzində, 1 nəfərin (qadın cinsli) müalicəsi isə şəxsi istəyilə Balakən Rayon Mərkəzi Xəstəxanasında aparılır.

Yeni Klinikanın Reanimasiya şöbəsinə qəbul olunaraq, üzərində cərrahi əməliyyat icra olunan şəxs hazırda həmin tibb müəssisəsində stasionar müalicə alır, vəziyyəti orta-ağır olaraq dəyərləndirilir.

Tibbi Reabilitasiya Mərkəzində müalicə alan şəxslərin hər birinin vəziyyəti qənaətbəxş hesab edilir. Müalicələri tibb müəssisəsinin Terapiya şöbəsində davam etdirilir.

Balakən Rayon Mərkəzi Xəstəxanasının Cərrahiyyə şöbəsində müalicə alan şəxsin vəziyyəti isə orta-ağır, stabil olaraq qiymətləndirilir.

Ümumilikdə, Yeni Klinikaya hospitalizasiya olunan və zəruri tibbi xidmətlərlə təmin olunan 17 yaralıdan 13 nəfəri artıq ambulator müalicə üçün evə yazılıb.

Ambulator müalicə üçün evə yazılanların sağlamlıq durumları yaşadıqları ərazi üzrə müvafiq sahə həkimləri tərəfindən nəzarətdə saxlanılır.

# Ucarda bələdiyyə büdcəsi belə olub



***2024-cü ildə bələdiyyə büdcəsinin gəlirləri əvvəlki illə müqayisədə 9,7 faiz azalaraq 263,9 min manat təşkil etmişdir. Bu dövr ərzində büdcədən 300,6 min manat və ya əvvəlki illə müqayisədə 11,7 faiz çox vəsait xərclənmişdir.***

Daxilolmaların 27,4 faizi torpaq vergisi, 19,1 faizi əmlak vergisi, 5,8 faizi bələdiyyə əmlakının özgəninkiləşdirilməsindən, 27,6 faizi bələdiyyə əmlakının icarəyə və istifadəyə verilməsindən, 19,5 faizi dövlət büdcəsindən verilən dotasiyadan, 0,2 faizi avtomobillərin dayanacaqları üçün ödənişlər, 0,4 faizi digər vergi olmayan daxilolmalar hesabına təmin edilmişdir.

Büdcə vəsaitlərinin 82,6 faizi yerli özünü idarəetmə orqanlarının, 2,3 faizi sosial müdafiə və sosial təminat, 0,5 faizi mühitin mühafizəsinə, 14,6 faizi digər sahələrin maliyyələşdirilməsinə xərclənmişdir.

*Ucar Rayon Statistika İdarəsinin baş məsləhətçisi Emin Qəhrəmanov*

# Cinayətdə şübhəli bilinən 66 nəfər saxlanıldı



***Fevralın 5-də ölkə ərazisində qeydə alınan 60, əvvəlki dövrlərdən bağlı qalan 14 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 150, o cümlədən borclu şəxs qismində axtarışda olan 124 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 39, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 11 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 66 nəfər saxlanılıb.

# Arıqlama çayları ilə bağlı iki qurumdan xəbərdarlıq



***Son dövrlər elektron ticarət yolu ilə kütləvi formada "arıqlama çayı və qəhvələri" adı altında müxtəlif markalı qəhvə və çayların Azərbaycan Respublikasına gətirilməsi artmaqdadır. Həmin mallar ilə əlaqədar gömrük orqanlarında aparılan araşdırmalar nəticəsində qeyd olunan qəhvə və çayların tərkibində bir sıra hallarda güclü təsirə malik maddə hesab edilən "sibutramin" maddəsinin olduğu aşkar edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi və Gömrük Komitəsinin birgə məlumatında deyilir.

Qeyd olunur ki, sibutramin maddəsi 18 mart 2016-cı il tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş "Güclü təsir edən maddələrin və onların külli miqdarının siyahısı"na daxildir və bu tərkibdə malların Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə, yaxud bəyan və ya düzgün bəyan etməməklə keçirilməsi Cinayət Məcəlləsinin 206-cı maddəsi, buna əsaslar olduqda həmin Məcəllənin 240-cı maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur.

Ölkə ərazisinə qadağan edilən bu kimi maddələrin gətirilməsinin qarşısının alınması üçün sifariş edilməsinə, daşınmasına yol verilməməsinin vacibliyi diqqətə çatdırılır.

Güclü təsir edən maddələrin ölkəyə qanunsuz yollarla gətirilməsində sifariş verən şəxslərlə bərabər daşıyıcı şirkətlər və digər şəxslər də qanunla müəyyən edilən qaydada məsuliyyət daşıyırlar.

Eyni zamanda, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Farmakoloji və Farmakopeya Ekspert Şurasının Protokoluna əsasən piylənmə əleyhinə vasitə kimi istifadə olunan "sibutramin" tərkibli məhsulların insan orqanizmi üçün təhlükəli olduğu və sağlamlığa göstərdiyi ciddi təsirləri nəzərə alınaraq dövlət qeydiyyatdan çıxarılması barədə qərar qəbul olunub və tərkibində "sibutramin" olan məhsulların dövlət qeydiyyatına alınması qadağan edilib. Sözügedən qərarlarda haqqında danışılan maddənin Avropa Səhiyyə Təşkilatı tərəfindən qeydiyyatdan çıxarılması və beynəlxalq səviyyədə onların istifadəsinin qadağan olunması təsbit olunub. Ona görə də, vətəndaşlara onlayn sifariş zamanı diqqətli olmaq tövsiyə edilir.

Sibutramin təsiredici maddəsinin, ümumilikdə 10 min 92 əlavə təsiri haqqında məlumatlar mövcuddur. Adıçəkilən maddənin əlavə təsirləri kimi baş ağrısı, yuxusuzluq, ağızda quruluq, başgicəllənmə, qəbizlik, qan təzyiqinin yüksəlməsi, depressiya, narahatlıq, yorğunluq, qusma, ishal, boğazda quruluq, migren, miokard infarktı, hallüsinasiyalar, ürək-damar xəstəliklərinin kəskin ağırlaşması və ciddi risklərinin meydana gəlməsi, astma, koma, nitq qabiliyyətinin itməsi, qəfil ölüm və s. göstərmək olar. Bu səbəblərdən sibutraminin istifadəsi bir çox ölkələrdə dayandırılıb. Belə ki, Azərbaycandan başqa, "sibutramin" tərkibli məhsulların dövlət qeydiyyatına alınması Avropa İttifaqı ölkələrində, həmçinin ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya, Sinqapur, Misir və digər dövlətlərdə qadağan olunub.

Sonda, əhaliyə piylənməyə qarşı sağlam həyat tərzi, düzgün qidalanma, fiziki aktivlik kimi elmi cəhətdən təsdiq olunan üsullara üstünlük verməleri və sağlamlığa ziyan gətirən belə məhsulların istifadəsindən uzaq durmaları tövsiyə olunur.

# Mədəniyyət Nazirliyinin yeni layihəsində məşhur ekspert iştirak edir

***Azərbaycan Milli İncəsənət Muzeyində Böyük Britaniya incəsənətinə aid əsərlərin elmi tədqiqi və konservasiyası üzrə layihə həyata keçirilir.***

"Unikal" xəbər verir ki, Azərbaycan Milli İncəsənət Muzeyi ilə Britaniya Şurasının (British Council) birgə layihəsi çərçivəsində 3-7 fevral tarixlərində gerçəkləşən təlim Britaniyadan dəvət olunmuş rəngkarlıq əsərlərinin konservasiyası üzrə tanınmış ekspert Rupert Fezerstoun tərəfindən aparılır.

Rəngkarlıq üzrə müstəqil bərpaçı və məsləhətçi kimi fəaliyyət göstərən R.Fezerstoun 2001-2008-ci illərdə Vindzor Sarayında Britaniya Kral Kolleksiyası üzrə rəngkarlıq əsərlərinin konservasiyasına rəhbərlik edib. 2008-2021-ci illərdə Kembric Universitetinin nəzdindəki Fitzvilyam Muzeyində konservasiya işləri üzrə rəhbər olub, həmçinin Hamilton Kerr



İnstitutunun direktoru vəzifəsində çalışıb.

Fevralın 3-də Rupert Fezerstoun Azərbaycan Milli İncəsənət Muzeyində sənət əsərlərinin konservasiyası sahəsində öz fəaliyyətinin əks olunduğu təqdimatla çıxış edib. O, həmçinin layihənin əsas məqsədi haqqında iştirakçılara məlumat verib. Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova, Britaniya Şurasının Azərbaycan üzrə nümayəndəliyinin direktoru Nərgiz Hacıyeva tədbirdə çıxış edərək layihənin əhəmiyyətindən danışıblar.

Daha sonra, layihənin proqramına uyğun olaraq 3-4 fevral tarixlərində Britaniya kolleksiyasının elmi tədqiqatı, qorunub saxlanılması və mövcud vəziyyətinin müəyyənləşdirilməsi üzrə araşdırma aparılıb.

Layihə çərçivəsində 5-6 fevral tarixlərində Milli İncəsənət Muzeyinin Elmi-bərpa, Elmi-tədqiqat və Fond şöbələrinin əməkdaşları üçün qabaqcıl konservasiya üsulları, uzunmüddətli qorunma və davamlılığın təmin olunmasına həsr edilən təlim sessiyası keçiriləcək.

Layihənin sonuncu günündə - fevralın 7-də isə Britaniya kolleksiyasının sərgiyə hazırlanması üçün planın işlənib hazırlanması üzrə təklif və tövsiyələr veriləcək, eləcə də layihənin yekun nəticələri müzakirə olunacaq.

# Ötən il 31 sahibkarlıq subyektinə rezidentlik verilib



***Ötən il ərzində 31 sahibkarlıq subyektinə rezidentlik verilib. "Unikal" xəbər verir ki, bunu mətbuat konfransında İqtisadi Zonaların İnkişafı Agrntliyinin İdarə Heyətinin sədri Seymur Adıgözəlov deyib.***

"2024-cü ili ölkə iqtisadiyyatı, o cümlədən İqtisadi Zonaların İnkişafı Agentliyi üçün uğurlu il hesab etmək olar, statistik göstəricilərə baxdıqda həm məhsul istehsalında, həm rezident sayında müsbət artımın baş verdiyinin şahidi olarıq.

Məlumat üçün bildirim ki, son dövrlərdə ölkəmizdə sənayeləşmə siyasətinə uyğun olaraq sənaye zonalarının yaradılması istiqamətində işlər uğurla davam etdirilir. Hazırda ölkəmizdə 13 sənaye zonası mövcuddur ki, bunlardan 9-u sənaye parkı, 4-ü isə sənaye məhəlləsi statusundadır.

Ölkədə sənaye zonalarının yaradılmasında əsas məqsəd qeyri-neft sektorunun inkişaf etdirilməsi, iqtisadiyyatın diversifikasiyasının sürətləndirilməsi, idxaldan asılılığın aradan qaldırılması və ölkənin ixrac imkanlarının genişləndirilməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

Qeyd etdiyim məqsədlərin, hədəflərin həyata keçirilməsi istiqamətində qısa zamanda böyük uğurlar əldə edilib və edilməkdədir. Belə ki biz statistik göstəricilərə baxdıqda hər il sənaye zonalarında məhsul istehsalında, yeni iş yerlərinin yaradılmasında, ixrac imkanlarının genişləndirilməsində müsbət dəyişikliklərin olduğunu görərik.

İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən ötən il ərzində zonalarında 31 sahibkarlıq subyektinə rezidentlik, 1 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bunlardan 14-ü Ağdam Sənaye Parkının, 8-i "Araz Vadisi Iqtisadi Zonası" Sənaye Parkının, 3-ü Sumqayıt Kimya Sənaye Parkının, 1-i Pirallahı Sənaye Parkının, 1-i Hacıqabul Sənaye Parkının, 2-si Masallı Sənaye Məhəlləsinin, 2-si Sabirabad Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınıb. Həmçinin "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında 1 sahibkarlıq subyektinə qeyri-rezidentlik statusu verilib.

Göründüyü kimi bunlardan da 23-ü işğaldan azad edilmiş ərazilərdə mövcud sənaye parklarının payına düşür.

Yeni qeydiyyata alınan şirkətlər tərəfindən sənaye zonalarına əlavə 224,6 milyon manat investisiyanın yatırılması, 2600-dən çox daimi iş yerinin yaradılması planlaşdırır. Qurulacaq müəssisələrdə dərman preparatları, əczaçılıq avadanlıqları, mebel, metal məmulatlar, müxtəlif tikinti materialları və s. məhsulların istehsalı təşkil olunacaq"-,o deyib.

S.Adıgözəlov vurğulayıb ki,bunlardan da 23-ü işğaldan azad edilmiş ərazilərdə mövcud sənaye parklarının payına düşür:

"Yeni qeydiyyata alınan şirkətlər tərəfindən sənaye zonalarına əlavə 224,6 milyon manat investisiyanın yatırılması, 2600-dən çox daimi iş yerinin yaradılması planlaşdırır. Qurulacaq müəssisələrdə dərman preparatları, əczaçılıq avadanlıqları, mebel, metal məmulatlar, müxtəlif tikinti materialları və s. məhsulların istehsalı təşkil olunacaq".

# Vətənin qəhrəman oğlu Mahir Paşayev

***Cəlilabad rayonu, Əsədli kəndində boya-başa çatan Mahir Bəxtiyar oğlu Paşayev İkinci Qarabağ müharibəsində Vətən, torpaq uğrunda şəhidlik zirvəsinə ucalaraq milyonların ürəyində özünə əbədi məkan qurub.***



Fəqət, Mahir həm də 30 il düşmən tapdağında qalan cənnət məkan Qarabağımızın mərd xilaskar ərənləri kimi tarixin yaddaşında silinməz iz qoyub. Elə bütün bunlara görə onun yaşadığı 23 illik ömür yolu doğma Azərbaycanına, millətinə başdan-başa ilahi bir sevgidir. Mahir torpaq, Vətən yolunda ölməklə bizim üçün ən müqəddəs bir varlığa dönərək əlçatmaz göylərə ucaldı.

O, kənd məktəbini bitirəndə birinci amalı Vətən torpağını qorumaq və mübarizliklə düşmənə qalib gəlib Qarabağı azad etmək olub. 2015-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət edib. Müqəddəs əsgəri borcunu şərəflə yerinə yetirib, vətənpərvər oğul olaraq əsgərlər arasında sayılıb tanınıb. İştirak etdiyi təlimlərdə də bütün sınaqlardan uğur qazanıb. Qəlbində erməni quldurlardan intiqam, qisas almaq alovu get-gedə güclənən Mahir hərbi sirlərinə mükəmməl yiyələnib. Və ən əsası cəbhə xətində yağı düşmənlə qarşı-qarşı dayanmış igid əsgər hər an Vətən torpaqların azadlığı naminə döyüşə atılmağa məqam gözləyib.

2016-cı ilin Aprel döyüşlərində Mahir Paşayev birincilər sırasında silaha sarılıb erməni dığalarına qarşı ölüm-dirim mübarizəsinə girib. İlk gündən çoxlu canlı qüvvəsinin, texnikasının axırına çıxmaqla onları lərzəyə salıb. Lələ təpədə üçrəngli qələbə bayrağımız ucalananda bir daha doğma Azərbaycanın hər qarışına ürəkdən bağlanıb. Mərdliyi, qəhrəmanlığı əsgər yoldaşlarına nümunə olan Mahir Paşayevə kiçik çavuş rütbəsi verilib.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Mahir Paşayev Vətən müharibəsində isə əsl qəhrəmanlıq salnaməsini yaradıb. Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən haqq savaşımızda can qoyub, müharibə meydanında yağıya qan uddurub. Döyüşdən-döyüşə Vətənə olan sonsuz məhəbbətini dığaların kabusuna çevrilməklə göstərib. Ağır müharibə meydanında yaxşı vuruşmaqla bərabər, həm də çiyin-çiyinə döyüşən əsgərlərə mənəvi dayaq durub, şəxsi şücaəti hesabına onlarda böyük qələbəyə inam yaradıb. Mahir Paşayev oktyabrın 9-da Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmənlə son damla qanına qədər vuruşub şəhidlik zirvəsinə ucalıb.

Vətənin yaşaması naminə canını fəda edən, şəhidliyi bütün millətə başucalığı olan Mahir Paşayev ölümündən sonra dövlət tərəfindən bir sıra medallara layiq görülüb. Rəşadətli döyüş yolunda göstərdiyi şücaətə verilən təltiflər arasında "Vətən uğrunda", "İgidliyə görə", Cəbrayılın, Kəlbəcərin, Xocavəndin və Qubadlının azadlığı medalları da vardır.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***



# Ağcabədidə bir nəfər kanalda batdı

***Ağcabədidə bir nəfər kanalda batıb. Bu barədə "Unikal"a Fövqəladə Hallar Nazirliyindən məlumat verilib.***

Bildirilib ki, Yuxarı Qarabağ kanalının Ağcabədi rayonu, Xocavənd kəndindən keçən hissəsində 1 nəfərin batması barədə məlumat daxil olub.

Məlumatla əlaqədar FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-xilasediciləri axtarışlara cəlb olunublar.

# Ucarda məhsul bazarı və sənaye statistikası

***2024-cü ildə pərakəndə ticarət şəbəkələrindən əhaliyə 260515,3 min manatlıq və ya 2023-cü illə müqayisədə real ifadədə 3,9 faiz çox istehlak malları satılmışdır.***

2024-cü ildə pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının həcmi 139018,3 min manat, qeyri-ərzaq mallarının həcmi 121497,0 min manat olmuşdur və əvvəlki ilə nisbətən müvafiq olaraq ərzaq məhsulları, içkilər və tütün məmulatlarının həcmi 9,7 faiz azalmış, qeyri-ərzaq mallarının həcmi isə 25,4 faiz artmışdır.

**Sənaye**

Sənaye müəssisələrində və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2024-cü ildə 13036,1 min manatlıq məhsul istehsal edilmiş və əvvəlki ilə nisbətən sənaye istehsalı indeksi 70,6 faiz təşkil etmişdir. İstehsalın 100,0 faizi müəssisələrin və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarların əsas fəaliyyətindən yaranmışdır.

2024-cü ildə sənaye sahəsində istehsalın və xidmətlərin həcminin 4247,1 min manatı və ya 32,6 faizi dövlət sektorunun, 8789,0 min manatı və ya 67,4 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal və xidmətlərin həcminin 3256,7 min manatını və ya 25,0 faizini elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsi, 990,4 min manatını və ya 7,6 faizini su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsi, 8789,0 min manatını və ya 67,4 faizini isə emal sənayesi sahəsi təşkil etmişdir.

***Ucar Rayon***
***Statistika İdarəsinin aparıcı məsləhətçisi***
***Cəlil Vəlimməmmədov***

# Ucarda məktəbli sinif yoldaşını bıçaqladı

***Ucarda məktəbli sinif yoldaşına ağır xəsarət yetirib.***

"Unikal" apa-ya istinadən xəbər verir ki, hadisə rayonun Rəstəcə kəndində baş verib. Rəstəcə kənd tam orta məktəbin 9 -cı sinif şagirdi, 16 yaşlı M. H. sinif yoldaşı Q.H. arasında mübahisə dava ilə nəticələnib. Belə ki, Q. H. M. H-ya bıçaqla xəsarətlər yetirib. Zərərçəkən Ucar Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. İlkin yardım göstərildikdən sonra Göyçay rayon xəstəxanasına aparılıb.

Zərərçəkənin yaxınlarının dediyinə görə, hadisə məktəbdə, sinif otağında baş verib.

0_27 IYUI-QARA.qxd 2/6/2025 10:06 PM Page 15





## ABŞ hava limanında iki sərnişin təyyarəsi toqquşdu

***Yaponiya Hava Yollarına məxsus təyyarə ABŞ-nin Sietl-Tacoma beynəlxalq hava limanında Delta Air Lines təyyarəsi ilə toqquşub.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ Federal Aviasiya Administrasiyası (FAA) məlumat yayıb.

Hadisə ilə əlaqədar FAA hava limanında bəzi uçuşları müvəqqəti olaraq dayandırıb.

"Ekipaj üzvləri və sərnişinlər arasında itkilər barədə məlumat yoxdur", - aviaşirkətin açıqlamasında bildirilir.

Agentlik hadisə ilə bağlı araşdırmalara başlanılıb.

***Gülayə Mecid***

## "Crocus" terroru ilə bağlı istintaq başa çatdı

***Rusiya İstintaq Komitəsi "Crocus City Hall"da terror aktı ilə bağlı ilkin istintaqı 11 aydan sonra başa çatdırıb.***

"Unikal" xəbər verir ki, bu barədə TASS məlumat yayıb.

Bu müddət ərzində bütün lazımi materiallar toplanıb, dörd cinayətkar və 16 iştirakçı da daxil olmaqla 20 nəfər həbs edilib, 800 şahid də daxil olmaqla 1700 nəfər dindirilib.

Tezliklə tərəflər işin materialları ilə tanış olacaqlar, daha sonra onlar məhkəməyə veriləcək.

Xatırladaq ki, ötən il martın 22-də konsert zalında terror aktı baş verib, 145 nəfər həlak olub.

***Ağarza Elçinoğlu***

## "Rusiya müharibədə qalib gəlməməlidir" - Merkel

***Almaniyanın keçmiş kansleri Angela Merkel xələfi Olaf Şoltsun ??Almaniya istehsalı olan "Taurus" uzun mənzilli raketlərini Ukraynaya ötürməmək qərarını dəstəkləyib, lakin Rusiyanın qalib gəlməsinə imkan verilməməsinə çağırıb.***

"Unikal" xəbər verir ki, bu barədə N-TV kanalı keçmiş kanslerdən sitat gətirib.

Həmçinin, Merkel Ukraynanın suveren demokratik dövlət olaraq qalmasını qeyd edib.

## İran PUA-lar üçün ilk təyyarədaşıyan gəmisini təqdim etdi

***İran pilotsuz uçuş aparatları (PUA) üçün ilk təyyarədaşıyan gəmisini təqdim edib.***

"Unikal" xəbər verir ki, bu barədə İranın "Mehr" agentliyi məlumat yayıb.

"İranın "Şəhid Baqiri" adlı pilotsuz uçuş aparatları üçün ilk təyyarədaşıyan gəmisi cümə axşamı səhər saatlarında nümayiş etdirilib", - məlumatda deyilir.

***Ağarza Elçinoğlu***

# Zəngəzur zavodunda silahlı dava - Saxlanılanlar var

***Ermənistanın Zəngəzur Mis-Molibden Zavodunda işçilər arasında kütləvi dava düşüb.***

"Unikal" xəbər verir ki, bu barədə "Sputnik Ermənistan" məlumat yayıb.

Məlumata görə, insident tətil edən işçilərlə tətilə qarşı çıxanlar arasında baş verib. Etirazçılar işə davam etmək istəyənlərə əllərində odlu silah və bıçaqla hücum ediblər.



Ermənistan Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, polisə Kacaranın Poçambar rayonunda əlbəyaxa dava olması barədə məlumat daxil olub.

Hadisə nəticəsində 8 nəfər var saxlanılıb.

Qeyd edək ki, zavodun bəzi əməkdaşları artıq bir neçə gündür ki, tətil edirlər. Onlar əmək haqqının 50% artırılmasını tələb etsə də, rəhbərlik bunu qəbuledilməz hesab edir.

***Ağarza Elçinoğlu***

# Dövlət çevrilişində ittiham olunan baş nazir iş başında tennis oynadı

***Polşa prokurorluğu dövlət çevrilişi ilə bağlı araşdırmalara başlayıb.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, Konstitusiya Məhkəməsinin sədrinin sözlərinə görə, baş nazir, nazirlər, Seymin (Milli Assambleyanın aşağı palatası) və Senatın marşalları (spikerləri), hakim koalisiyanın deputatları və senatorları, ştatın qanunvericilik mərkəzinin rəhbəri və bəzi hakimlər, eləcə də bəzi digər şəxslər bu işdə iştirak edə bilərlər.

Bu məlumatı Qanun və Ədalət partiyasının lideri Yaroslav Kaçinski şərh edib.

"Konstitusiya Məhkəməsi sədrinin təşəbbüsünü və Baş prokuror müavininin cinayətin - dövlət çevrilişinin törədilməsində əsaslı şübhələr barədə bəyanatı əsasında araşdırmaya başlamasını məmnunluqla alqışlayıram", - deyə o bildirib.

Hadisələr fonunda, baş nazir Donald Tuskun reaksiyası özünü çox gözlətməyib. O, stolüstü tennis oynadığı videonu sosial şəbəkədə yerləşdirib və belə şərh edib: "Buyurun, burada ciddi işimiz var. Bunula sonra məşğul olacağıq".

Siyasətçinin sözügedən postu maraqla qarşılanıb. Yaroslav Kaçinski isə Tuskun bu addımını



yüksək qiymətləndirib, lakin iş başında bu işlərlə məşğul olmasına diqqət çəkib.

***Gülayə Mecid***

# Paşinyan həbs həyatından danışdı

***"Müqəddəs İncilin, Əhdi-Cədidin dəyərləri mənim üçün çox vacibdir və əslində, mənim siyasi fəaliyyətim əvvəldən onlara əsaslanır".***

"Unikal" xəbər verir ki, bunu Dini Etiqad Azadlığı üzrə V Beynəlxalq Sammit çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyan deyib.

"Mən bir siyasi məhbus kimi



həbsxanada olarkən bu çətinliyin öhdəsindən gəlməyə kömək edən güc İncil idi. Gündəlik işimdə özümü necə aparmağım üçün bir bələdçi kimi Müqəddəs Kitaba sahib olmaq mənim üçün çox vacibdir. Əlbəttə ki, bu, xüsusilə siyasətdə asan deyil, amma daxili və xarici siyasətdə dini azadlıqlar çox önəmlidir".

***Ağarza Elçinoğlu***

# İrəvan meriyasında saxlanılan məmurlar həbs edildi

***Dünən İrəvan meriyasında həbs edilən şəxslərdən 4-ü barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəməyə vəsatətlər verilib və bütün vəsatətlər təmin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Ermənistan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə Komitəsi bildirib ki, saxlanılan şəxslərdən 3-ü meriya məmurudur.

Qeyd olunub ki, həbslər rüşvət işi ilə bağlıdır.

Həbs edilənlər arasında İrəvan Şəhərsalma və Torpaq Nəzarəti İdarəsinin keçmiş rəisi Robert Darbinyan, Şəhərsalma və Torpaq Nəzarəti Departamentinin 2-ci ərazi şöbəsinin rəisi Mikayel Qimoyan və İctimai Asayişin Mühafizəsi Xidmətinin rəisi Aram Gülzadyan da var.

***Ağarza Elçinoğlu***

# Makron Suriya liderini Fransaya dəvət etdi

***Suriyanın yeni prezidenti Əhməd əl-Şaraa fransalı həmkarı Emmanuel Makrondan Parisə rəsmi səfərə dəvət alıb.***

"Unikal" xəbər verir ki, bu barədə Makronla telefon danışığından sonra Suriya liderinin ofisi məlumat yayıb. "Əhməd əl-Şaraa Fransa prezidentindən yaxın həftələrdə Fransaya səfər etmək üçün dəvət alıb. Prezidentlər Suriyanın təhlükəsizlik məsələlərini və onun sabitliyini dəstəkləmək üçün birgə işləmək zərurətini müzakirə ediblər", - məlumatda deyilir.

***Ağarza Elçinoğlu***



0_27 IYUI-QARA.qxd 2/6/2025 10:06 PM Page 16



# Kadi "Qarabağ"a qayıtmasından danışdı



***"Yenidən burada, mənə dəyər verilən və hörmət edilən yerdə olduğum üçün çox şadam".***

"Unikal" xəbər verir ki, bu sözləri "Qarabağ"ın yeni transferi Kadi Borges Macarıstan mətbuatına açıqlamasında deyib.

Braziliyalı yarımmüdafiəçi bildirib ki, Ağdam klubunda bütün futbolçulara güvənirlər: "Burada ruhum dinclik, sakitlik tapır. İndi məşqə köklənməyin vaxtıdır ki, meydana mümkün qədər tez qayıda bilim. Komandama uzunmüddətli perspektivdə kömək etmək istəyirəm".

"Qarabağ"a transferindən söz açan 29 yaşlı futbolçu "Ferentsvaroş"dan öz istəyilə ayrılmadığını vurğulayıb: "Mənim üçün də sürpriz oldu. Növbəti oyunumuza hazırlaşdığım vaxtda idman direktoru mənə zəng edərək klubumu dəyişmək istəyib-istəmədiyimi soruşdu. Dedim ki, gedəcəyim komanda mənim üçün ən yaxşısıdırsa, bəli. Əvvəlcə onun mənimlə danışıqlara başlayacağını düşünürdüm, lakin dərhal başa düşdüm ki, məsələ artıq son mərhələdədir. Agentimə zəng etdim, o da heç nə bilmirdi. Bir-birimizə suallar verdik, heç olmasa bunu izah edə biləcək bir şey tapmağa çalışdıq. Biz hələ də səbəbləri anlamırıq, bu, klubun qərarı idi".

Qeyd edək ki, "Qarabağ" Kadi Borgeslə 4 illik müqavilə imzalayıb.

# "Rəhbər şəxslər fikirlərini bildiriblər, onları dəstəkləyirəm" - Mehdi Cənnətov

***"Sumqayıt"ın qapıçısı Mehdi Cənnətovun QOL.az saytına müsahibəsi.***

***- Azərbaycan kubokunun 1/4 final mərhələsinin ilk oyununda səfərdə "Sabah"la qolsuz bərabərə qaldınız. Görüşü necə şərh edərdiniz?***

- Kubokun 1/4 finalı 2 matçdan ibarətdir. Səfərdə "Sabah"la qolsuz bərabərə qalmaq pis nəticə deyil. Lakin qarşıda hələ cavab oyunu var. Həmin matça ciddi hazırlaşmaq lazımdır.



***- Şansları necə dəyərləndirirsiniz?***

- Şanslar 50-nin 50-yədir. Çünki hələ heç nə məlum deyil. Düzdür, ilk oyunu "Sabah" öz meydanında keçirirdi və bu, onlar üçün üstünlük hesab edilirdi. Lakin cavab matçında hər şey ola bilər.

***- Demək olar ki, ölkə kuboku "Sumqayıt" üçün avrokuboklara yollanmaq baxımından son şansdır?***

- Bəli, hazırkı məqamda bizim üçün avrokuboklara gedən ən yaxın yol kubokdur. Elə etmək lazımdır ki, uğur qazanaq. Ancaq hazırda mövsümün sonunu düşünmürük. İlk hədəf yarımfinala adlamaqdır.

***- "Sumqayıt" son 6 rəsmi matçda nə qol vura bilib, nə də qalib gəlib. Bu, nə ilə əlaqədardır?***

- Düşünürəm ki, qarşıdakı matçlarda qollarımız gələcək. Məşqlərdə daha çox çalışmaq lazımdır. Tezliklə vəziyyəti dəyişəcəyik.

***- Həm də 3 matçdır ki, siz də qapınızı toxunulmaz saxlayırsınız...***

- Eyni zamanda qapımızı da toxunulmaz saxlayırıqsa, bu, müsbət haldır. İnanıram ki, qarşıdakı matçlarda qollar da gələcək, qələbələr də.

***- "Sabah"la matçın sonlarında rəqib futbolçu Pavol Safranko ilə aranızda mübahisə yarandı. Nə baş vermişdi?***

- Anlaşılmazlıq idi. Normal qaydada yoluna qoyduq. Qorxulu heç nə yoxdur.

***- Qarşıdan "Şamaxı" ilə çempionat oyunu gəlir. Həmin matçdan gözləntiləriniz nədir?***

- İlk növbədə bərpa olmaq lazımdır. Bizdən fərqli olaraq rəqibin daha çox vaxtı var. Bizim isə kubok oyununa görə zamanımız azdır. Lakin hazırlaşacağıq. Məşqçilər heyəti rəqibin oyununu analiz edəcək və bizə lazımi tapşırıqları verəcəklər.

***- Siz həm də Azərbaycan millisinin qapıçısısınız. Necə düşünürsünüz, legioner limitinin ləğvi sırf qapıçı xətti baxımından Azərbaycan milli komandasına hansı problemlər yaradacaq?***

- Bu, elə çətin sualdır ki... Çünki rəhbər şəxslər fikirlərini bildiriblər. Mən də bu planda onları dəstəkləyirəm. Azərbaycan gənc qapıçılar var və kifayət qədər güclüdürlər. Mən qərarla bağlı bir söz deyə bilmərəm. Yalnız onu söyləyirəm ki, yaxşı qapıçılar var.

# "Fənərbağça" rəqibini darmadağın etdi

***"Fənərbağça" Türkiyə Kubokunda növbəti oyununu keçirib.***

"Unikal" xəbər verir ki, İstanbul təmsilçisi qrup mərhələsinin II turunda "Ərzurumspor"u qəbul edib. Qarşılaşma meydan sahiblərinin 5:0 hesablı qələbəsi ilə başa çatıb. "Fənərbağça"ın heyətində qolları Anderson Taliska, Cenk Tosun (penalti), Mərt Hakan Yandaş və Yussuf En-Nesiri (2) vurublar.

Bununla da İstanbul nəhəngi qrup mərhələsində ardıcıl 2-ci qələbəsini qazanaraq, xallarının sayını 6-ya çatdırıb.



# Neymar 12 ildən sonra "Santos"da oyuna çıxdı



***12 ildən sonra "Santos"a qayıdan Neymar Braziliya klubu ilə ilk oyuna çıxıb.***

O, Paulista liqasında "Botafoqo" ilə matçda iştirak edib.

Neymar 1:1 hesabı ilə başa çatan matçın 46-cı dəqiqəsində - komandası hesabda öndə olarkən meydana çıxıb.

Qeyd edək ki, "Santos"un yetirməsi olan Neymar 2009-2013-cü illərdə bu klubun əsas komandasında çıxış edib. O, daha sonra "Barselona", PSJ və "Əl Hilal"da oynayıb.

# "Real Madrid" yarımfinala yüksəldi



***"Real Madrid" İspaniya Kral Kubokunda yarımfinala yüksəlib.***

"Unikal" xəbər verir ki, Madrid klubu 1/4 finalda "Leqanes"lə qarşılaşıb. Görüş paytaxt təmsilçisinin 3:2 hesablı qələbəsi ilə yekunlaşıb.

Bununla da, Karlo Ançelottinin rəhbərlik etdiyi komanda adını yarımfinala yazdırıb.

# Azərbaycan millisi Avropa çempionatında - Oyunların təqvimi



***19 yaşadək futzalçılardan ibarət Azərbaycan millisinin Avropa çempionatının əsas mərhələsindəki oyunlarının vaxtı açıqlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Futzal Federasiyasının saytı məlumat yayıb.

7-ci qrupda yer alan Azərbaycan millisinin oyunlarının təqvimi aşağıdakı kimidir:

**26 mart**

19:00. Bosniya və Herseqovina - Azərbaycan
Ribnyak İdman Sarayı

**27 mart**

22:00. Xorvatiya - Azərbaycan
Ribnyak İdman Sarayı

**29 mart**

19:00. Azərbaycan - Türkiyə
Ribnyak İdman Sarayı

Qeyd edək ki, bu qrupun bütün oyunları Xorvatiyanın paytaxtı Zaqrebdə keçiriləcək.

# 29 yaşında karyerasını bitirdi, "Sabah"ı yada saldı



***"Sabah" və "Qəbələ"nin sabiq futbolçusu Zurab Oçiqava karyerasını bitirib.***

QOL.az xəbər verir ki, o, bunun səbəbi ilə bağlı Ukraynanın "Sport" nəşrinə müsahibəsində danışıb. Gürcü əsilli ukraynalı futbolçu məşqçiliyə başlayacağını bildirib.

Oçiqava müsahibəsində karyerasının ən uğurlu dönəmini "Sabah"da keçirdiyini də deyib: "Sabah"dakı dövr, şübhəsiz ki, əcnəbi karyeramın ən yaxşısı idi. Bu klub mənə çox şey verdi, buna görə minnətdaram".

Qeyd edək ki, Zurab 2021-ci ilin əvvəlindən 2023-cü ilin yayınadək "Sabah"da, 2023-24 mövsümündə isə "Qəbələ"də oynayıb. O, zədə səbəbindən uzun müddət yaşıl meydanlardan kənarda qalmışdı.